# "Pul lazımdır"

## Bayden "yeni pandemiya"nı anons etdi



**ABŞ prezidenti Co Bayden Ağ Evdə keçirdiyi brifinqdə deyib ki, büdcədən əlavə vəsait tələb olunacaq, yeni pandemiya gəlir.**

Milli.Az bildirir ki, jurnalistlər Baydendən ABŞ-da COVID-19 ilə mübarizə layihəsinə əlavə maliyyə ayrılması barədə soruşdular.

"İkinci pandemiyanı planlaşdırmaq üçün daha çox pula ehtiyacımız var. Başqa biri olacaq. Biz qabaqcadan düşünməliyik. Bunun üçün pul lazımdır", - Bayden dedi.

## Türkiyə MN Azərbaycanın da iştirak etdiyi təlimlərlə bağlı paylaşım edib



**Türkiyənin Milli Müdafiə Nazirliyi tviter hesabında Azərbaycanın da iştirakı ilə keçirilən bu ölkənin Konya şəhərində "Anadolu Qartalı - 2022" beynəlxalq taktiki-uçuş təlimi ilə bağlı paylaşım edib.**

Paylaşımda qeyd olunub: "Anadolu Qartalı - 2022" beynəlxalq taktiki-uçuş təlimi Konyadakı III Əsas Qırıcı Bazasının Komandanlığında davam edir. Dost və müttəfiq ölkələrin iştirakı ilə gerçəkləşdirilən təlimlər iyulun 1-dək davam edəcək".




# Gəncədə Qafqaz İslam Ordusuna abidə ucaldılıb

## İyunun 26-da abidənin açılışı olacaq

**Gəncədə Qafqaz İslam Ordusunun bu şəhərdəki ilk şəhidlərinin xatirəsinə abidə ucaldılıb.**

"Report" xəbər verir ki, bu barədə Türkiyənin Gəncədəki Baş konsulluğu məlumat yayıb.

İyunun 26-da abidənin açılışı olacaq.

*Xatırladaq ki, abidənin təməlqoyma mərasimi ötən ayın 12-də baş tutub.*


❐ № 109 (5631), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 iyun 2022-ci il (cümə axşamı)




# Kremlin avazı yaxşı gəlir

## Rusiya sülh öhdəliyini tezliklə həll etməlidir

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Moskvanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasında hamıdan çox maraqlı olduğunu deyib. Zaxarova bildirib ki, Rusiya ayrı-ayrı kənar oyunçuların siyasiləşmiş addımlarının regionda sülh və sabitliyin bərpa edilməsinə yönəlmiş səyləri boşa çıxarmasına imkan verməyəcək.**

O vurğulayıb ki, Rusiya üç dövlət liderinin bəyanatında nəzərdə tutulmuş öhdəliklərin və vəzifələrin qeyd-şərtsiz yerinə yetirilməsi üçün əlindən gələni edəcək. Rusiya XİN təmsilçisi vurğulayıb ki, Kreml Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının və iqtisadi əlaqələrin bərpa olunması ilə bağlı Üçtərəfli İşçi Qrupun fəaliyyətinin aktivləşməsini alqışlayır...

(səh.2)

# Laçın-Kəlbəcərdə külək elektrik stansiyası tikiləcək



**Laçın-Kəlbəcər rayonlarında külək elektrik stansiyası tikiləcək.**

Bu, Nazirlər Kabinetinin bu gün təsdiqlədiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nda əksini tapıb.

Tədbirlər Planına əsasən, Energetika Nazirliyi "Azərenerji" ASC ilə birlikdə Laçın-Kəlbəcər rayonlarında külək elektrik stansiyasının tikintisini təmin etməlidir.

Nazirlik 2022- 2026-cı illər ərzində layihəyə hazırlıq işlərinin görülməsi, müqavilələrin imzalanması, stansiyanın tikintisini (400 MVt gücündə) təmin etməlidir.

# Bizi birləşdirən əsas dəyər mədəniyyətdir

## "Özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacaq"



**Azərbaycan Prezidenti:**

"Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini anladım, tərcüməçiyə ehtiyac qalmadı"

**İyunun 22-də Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil edilib. Qəbulda konsert proqramı təqdim olunub. Dövlət başçıları incəsənət ustalarının çıxışlarını dinləyib, onlarla söhbət ediblər.**

**Prezident Şavkat Mirziyoyev:** Əvvəlcə, bu gün bizim sənətçilər dostum, qardaşım İlham Heydər oğluna gözəl Xivədə, Özbəkistanda bizim mədəniyyətimizi, sənətimizi və onların yaxınlığını göstərdilər. Mən Sizə olduqca minnətdaram və bu gün çox qurur hissi keçirdim ki, qardaşımla bir dildə danışdıq və aramızda tərcüməçi yox idi.

(səh.2)

# Mal əti ucuzlaşmayacaq

## Yalnız Qarabağda heyvandarlıq inkişaf etdirilərsə, qiymətlərin ucuzlaşması mümkün olar



**Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən "Kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması Qaydası"nda dəyişikliklər edilib.**

Nazirlər Kabinetinin məlumatına görə, dəyişikliyə əsasən heyvanların identikləşdirilməsi fəaliyyəti sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi ilə yanaşı vahid sənədləşmənin tətbiq edilməsi, heyvan sahiblərinin identikləşdirilmə üçün bir heyvan üçün tələb olunan xərclərinin azaldılması təmin edilib.

(səh.6)

# Gömrük generalı barəsində həbs qətimkan tədbiri seçilib



**"Azərterminalkompleks" birliyinin sabiq direktoru, gömrük general-mayoru Ehtiram Xəlilov barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının təqdimata baxılıb.**

APA xəbər verir ki, Səbail Rayon Məhkəməsində hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə təqdimat təmin edilib.

Ehtiram Xəlilov barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

*Qeyd edək ki, "Azərterminalkompleks" birliyinin sabiq direktoru, gömrük general-mayoru Ehtiram Xəlilov Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi xüsusi əməliyyat zamanı saxlanılıb. O, külli miqdarda rüşvət almaqda və vəzifə səlahiyyətlərini aşmaqda ittiham edilir.*

# Rusiya PUA-sı Türkiyə ərazisinə düşüb

## Pilotsuz uçuş aparatı ekspertiza üçün paytaxt Ankaraya göndərilib



**Türkiyənin Gümüşhane şəhərinin Kürtün rayonunda dağlıq ərazidə qəzaya uğramış Rusiyanın "Orlan-10" pilotsuz uçuş aparatı (PUA) aşkarlanıb.**

"Haber Global" xəbər verir ki, nə zaman düşdüyü müəyyən edilməyən PUA-nı göbələk yığımına gedən vətəndaşlar tapıb.

1400 kilometr mənzilli PUA-nın müharibə səbəbindən Ukrayna və ya Suriyadan siqnal itdikdən sonra bu bölgəyə gəlib çatdığı güman edilir.

Təhlükəsizlik qüvvələri tərəfindən hadisə yerindən götürülən PUA ekspertiza üçün paytaxt Ankaraya göndərilib.

# Vəfat edən olmayıb

## Daha 27 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 27 yeni yoluxma faktı qeydə alınıb, 15 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 793 063 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 196 nəfər müalicə olunaraq sağalıb, 9716 nəfər vəfat edib, aktiv xəstə sayı 151 nəfərdir.*



# "Bizlər özbəklərlə eyni babanın iki övladı qədər doğma və yaxınıq"

Almaz Ülvi Binnətova: "Başımızın üstündəki zalım və qəddar imperiya tör-töküntüləri biri-birimizi bağrımıza basmağa macal verməyiblər"

(səh.4)

# Məmurlar yuxuya gedib

"Bir nəfər çıxıb açıqlamır ki, quru sərhədləri niyə, hansı səbəbdən açılmır"



(səh.5)

# Bizi birləşdirən əsas dəyər mədəniyyətdir

“Özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacaq”



Azərbaycan Prezidenti: “Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini anladım, tərcüməçiyə ehtiyac qalmadı”

**İyunun 22-də Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil edilib.**

**Qəbulda konsert proqramı təqdim olunub.**

**Dövlət başçıları incəsənət ustalarının çıxışlarını dinləyib, onlarla söhbət ediblər.**

**Prezident Şavkat Mirziyoyev:** Əvvəlcə, bu gün bizim sənətçilər dostum, qardaşım İlham Heydər oğluna gözəl Xivədə, Özbəkistanda bizim mədəniyyətimizi, sənətimizi və onların yaxınlığını göstərdilər. Mən Sizə olduqca minnətdaram və bu gün çox qurur hissi keçirdim ki, qardaşımla bir dildə danışdıq və aramızda tərcüməçi yox idi. Bu sənətçilər bizim mədəniyyətimizi, tariximizi, soykökümüzü, birliyimizi dərin sevgi, məhəbbət və ehtiramla tərənnüm etdilər, göstərdilər ki, bu iki böyük xalqın tarixi birliyi və gələcəyi həqiqətən də sarsılmazdır. Biz dünəndən dostluğumuz, əlaqələrimiz haqqında danışır və müzakirələr aparırıq. Lakin bu gün bizə bunu əməli olaraq sənət ilə göstərdiniz. Mən sizə minnətdaram.

Son illər bizim mədəniyyətimizə, tariximizə, ümumiyyətlə, makomumuza və muğamımıza ehtiramla yanaşmağımız təqdirəlayiqdir. İllər ötəcək, əsrlər keçəcək və gələcəkdə siz bu mədəniyyətin iştirakçıları olacaqsınız. Övladlarınız, qonşularınız, dostlarınız həmişə bu mədəniyyət ilə təmasda olacaqlar. Mən qardaşım İlham Heydər oğluna məmnuniyyətlə demək istəyirəm ki, bu gün sənətçilər bizə Yeni Özbəkistanda yeni mədəniyyəti göstərdilər.

**Prezident İlham Əliyev:** Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı. Mənim dövlət səfərim bu gün başa çatır. Dünən Daşkənddə, bu gün Xivədə, Ürgəncdə, Xarəzm vilayətində olmağımdan çox məmnunam. Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olundu. Heç bir ləhcə, şivə yoxdur. Bu, nəyi göstərir? Xalqlarımızın birliyini. Siz Türk mədəniyyətimizi tərənnüm edən ifaçılar, sənətkarlar və mədəniyyət ustadları bizim fəxrimizsiniz.

Şavkat Miromonoviçlə bu masa arxasında söhbət əsnasında o, hər bir ifaçının adını bilirdi. Bilirdi harada oxuyub, bu, Bakıda oxuyub, o orada oxuyub, bu, mədəniyyət naziridir, o orada. Bu, onu göstərir ki, Prezident hər bir sənət adamının məsələləri ilə şəxsən məşğul olur. Onun sizə olan sevgisi özbək xalqına olan sevgisidir.

Bu gün yeni Özbəkistanı mən özüm üçün kəşf etdim. Yeni Özbəkistan qardaşımın simasında, sizin simanızda çiçəklənir. Yeni Özbəkistanın həyatı uğurlu olsun, xeyirli olsun. İnşallah, hamımız - özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacağıq.

**Prezident Şavkat Mirziyoyev:** İnşallah.

**Prezident İlham Əliyev:** Bu papaqlardan bizdə də var. Xarəzm şivəsi, ləhcəsi Azərbaycan dilinə çox oxşayır. Biz bu papağa Buxara papaq deyirik.

**Prezident Şavkat Mirziyoyev:** Biz ilk gündən qardaşım İlham Heydər oğlu ilə xeyli məsələləri reallaşdırmaq, birliyimiz, həmrəyliyimiz, ən əsas dinc yaşayışımız, firavanlığımızla bağlı çox fikir mübadiləsi apardıq və qərarlar qəbul etdik. Gələcək əməkdaşlığımızla bağlı böyük planları müzakirə etdik. Mən bir məsələni sizlərə bildirmək istəyirəm ki, iqtisadiyyat, siyasət vacibdir, lakin bizi birləşdirən əsas dəyər mədəniyyətdir. Düşünürəm ki, bizləri birləşdirən möhkəm vasitə mədəniyyətdir. Biz razılaşdıq ki, heç olmasa üç aydan bir qarşılıqlı səfərlər reallaşdıraq, gediş-gəlişi artıraraq mədəni birliyimizi yeni müstəviyə qaldıraq.

Cari ilin noyabrında Səmərqənd şəhərində keçiriləcək görüşümüz zamanı orkestrimizin iştirakı ilə muğam və makom sənətinə dair Füzuli, Nəvai şeirləri əsasında birgə konsert təşkil etmək necə də gözəl olar. Düşünürəm ki, Siz buna bir ay hazırlaşsanız, nə qədər yüksək nəticə əldə edə bilərsiniz. Heç bir niyyətimiz, amalımız mədəniyyətsiz, mədəniyyətlə təmasda olmadan reallaşa bilməz.

Özbəkistanın paytaxtı Daşkənd öz yerində, Xivədə, Xarəzm vilayətində, uzaq bir diyarımızda qardaşım üçün bu konserti hazırlayan orkestrimizə minnətdarlığımı bildirirəm. Mədəniyyət nazirimiz bu orkestri təşkil etdi və mən bunun üçün onun xidmətini qiymətləndirirəm. Sağ olun.



# Əzəməti və gözəlliyi ilə məşhur olan "Nurullaboy" sarayı

Prezident İlham Əliyev Xivədə komplekslə tanış olub

**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xivə şəhərində ”Nurullaboy” saray kompleksi ilə tanış olublar.**

Saray kompleksi barədə dövlət başçılarına məlumat verilib.

Bildirilib ki, əzəməti və gözəlliyi ilə məşhur olan ”Nurullaboy” saray kompleksi Xivə xanı II Məhəmməd-Rəhimbayanın əmri ilə 1906-1912-ci illərdə tikilib. Dörd hissədən ibarət saray kompleksinə ümumilikdə 100-dən çox zal və otaq, o cümlədən mərasim və məhkəmə zalları, yaşayış binaları və mədrəsə daxildir. Saray kompleksindəki bütün tikililər uzunluğu 650 metrdən çox olan güclü istehkamla əhatə edilib. Qala divarı üzərində yarımdairəvi qüllələr ucaldılıb. Rusiya imperatoru II Nikolay kompleksin tikintisi başa çatdıqdan sonra saraya iki çilçıraq və kiçik bir elektrik stansiyası bağışlayıb.

”Nurullaboy” sarayı milli və Avropa memarlıq üslublarının vəhdəti əsasında inşa olunub. Bu da həmin dövrdə şəhərsalma sahəsində üstünlük təşkil edən üslubla əlaqədardır. Qızılı və rəngli rəsmlərlə örtülmüş məşhur Xivə oymaları sarayın cəlbediciliyini daha da artırır.

Saray kompleksində daimi rəsm sərgiləri fəaliyyət göstərir, tarixi sənədlər, milli geyim nümunələri nümayiş olunur.

# Avropada tolerantlığa hörmət itib

Qərb ölkələri islamafobiyadan, dini dözümsüzlükdən əziyyət çəkir



**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun yay sessiyasında çıxışı zamanı bir məsələni qaldırıb. Seyidov deyib ki, Avropada tolerantlıq dəyərdən düşüb. İyirmi ildir AŞ PA-nın üzvü olduğunu deyən azərbaycanlı deputat Strasburq şəhərinin mərkəzində yerləşən sinaqoqun qapılarını hər zaman bağlı gördüyünü söyləyib:**

”Mənim şəhərim olan Bakıda, Azərbaycanın paytaxtında da sinaqoq var və bütün həyatım boyu onun qapılarını heç vaxt bağlı görməmişəm. Ancaq təəssüflər olsun ki, Avropada tolerantlığa hörmət itib. Biz AŞ PA-nın üzvləri kimi bu dəyərin aktuallaşması üçün əlimizdən gələni etməliyik. Bir az yəhudi, bir az müsəlman olmağa çalışmalıyıq. Etnik mənşəyinə görə ayrı-seçkilikdən əziyyət çəkənləri bu zaman gözəl anlayacağıq”.

**Səməd Seyidovun diqqət çəkdiyi məqamla bağlı ”Şərq”ə danışan millət vəkili Ceyhun Məmmədov bildirib ki, Avropa ölkələri islamafobiyadan, dini dözümsüzlükdən əziyyət çəkir. Deputatın sözlərinə görə, xüsusən, əksər Avropa ölkəsində islamafobiya özünü açıq şəkildə büruzə verir:** ”Burada Avropanın bir sıra siyasi partiyalarının dinə qarşı ifadələr işlətmələri, islama dözümsüz yanaşmaları son nəticədə islamafobiyanı gündəmə çıxarır. Təəssüf ki, Avropanın ən demokratik ölkələrində digər dinlərə qarşı diqqətsizlik və hörmətsizlik mövcuddur. Yaxşı xatırlayırıq ki, Fransada bir müddət əvvəl Məhəmməd Peyğəmbərin karikaturası çəkildi. Fransa dövləti bunu insan hüquq və azadlıqları ilə əlaqələndərdi. Halbuki, bu, yolverilməz idi. Eyni zamanda, İsveçdə, Finlandiyada və başqa ölkələrdə də ”Quran”ın yandırılmasının, təhqir edilməsinin şahidi olmuşuq. Əfsuslar olsun ki, buna heç bir münasibət bildirilməyib. Avropanın bəzi siyasətçilərinin də islama qarşı bəyanatlarının şahidi olmuşuq. Hesab edirəm ki, bu mənzərənin də ortaya çıxmasının səbəbi Avropanın bəzi dövlətlərinin yanlış siyasət yürütmələridir”.

**İsmayıl Qocayev**

# Bütün sahələrdə əməkdaşlıq genişlənəcək

“Biz Özbəkistanla birlikdə “Orta Dəhliz” deyilən layihənin aparıcı qüvvəsi olacağıq”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gedib. Bu səfər 25 il əvvəl ümummilli lider Heydər Əliyevin Özbəkistana səfərinin tarixi ilə üst-üstə düşüb.**

Səfər zamanı iki ölkə başçısının geniş tərkibdə görüşü olub. Görüşdə çıxış edən Özbəkistan lideri vacib məqamlara toxunub. Şavkat Mirziyoyev vurğulayıb ki, Prezident İlham Əliyevin səfəri ikitərəfli münasibətlərin tarixində vacib əlamətdar hadisədir: ” Bu səfər bizim münasibətlərə yeni təkan verməlidir. Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir.

Biz Azərbaycanın müasir nəqliyyat şəbəkəsindən, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, yük daşımalarını bundan sonra da artırmaq niyyətindəyik. Bu, xüsusən, ərzaq və sənaye mallarının tranziti məsələlərinə aiddir. Heydər Əliyevin adını daşıyan



yenilənmiş küçə və orada qoyulmuş abidə öz xalqının həqiqi liderinə və Özbəkistanın yaxın dostu olmuş dahi insanın xatirəsinə bizim ehtiramımızın əlamətidir”.

**Prezident İlham Əliyevin Özbəkistan səfərini şərh edən politoloq Tofiq Abbaslı ”Şərq”ə bildirib ki, bu iki ölkə arasında əsası çoxdan qoyulmuş münasibətlər var:** ”Özbəkistan mərkəzi Asiyanın, Azərbaycan isə Qafqazın aparıcı qüvvəsidir. Əlaqələrimiz ildən-ilə genişlənir. İyulun 21-də ümummilli lider Heydər Əliyevin Özbəkistana rəsmi səfərindən tam 25 il keçir. Yəni bizim Özbəkistanla münasibətlərimiz ən az 25 il inkişaf edib. Bəzi insanların fikrincə, ticari dövriyyəmiz bir o qədər də böyük deyil, bundan da artıq ola bilər. Lakin əsas odur ki, iki tərəf arasında etimad və istəklər var ki, bütün sahələrdə əməkdaşlıq olsun. Biz Özbəkistanla birlikdə “Orta Dəhliz” deyilən layihənin aparıcı qüvvəsi olacağıq”.

**Politoloq qeyd edib ki, indiki vəziyyətdə insanların, resursların daşınması böyük rol oynayır:** ”Hətta pandemiya dövründə gördük ki, bir çox yollar kommunikasiyalara qapandı, dövlətlər öz sərhədlərini bağladılar. Buna baxmayaraq, türk dövlətləri arasında çox böyük canlanma var idi. Hətta Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin zirvə toplantısı keçirildi. Macarıstan da Vikter Orbanın iştirakı ilə həmin toplantıya qoşulmuşdu. Orada qeyd olundu ki, ölkələrimizin arasında neft daşımalarında artım var. Bu onu sübut edir ki, müxtəlif ekstrimal şəraitlər formalaşsa da, dövlətlərarası münasibətlərdə təmaslar dayanmamalıdır.

Əsas sahələrdə - energetika, nəqliyyat, kommunikasiya, aqrar sənaye, investisiyada ortaq razılaşmalar əldə olundu. Hətta hərbi-texniki sahəyə dair iki dövlətin böyük niyyətləri var. Heç bir hərbi siyasi alyansın üzvü olmasaq da, bu işlərdə həmahəng hərəkət edəcəyik”.

**Çimnaz Şahlar**

# Özbəkistan xalqının Azərbaycana həmişə sonsuz sevgisi, rəğbəti olub

Prezidentin tarixi səfərindən sonra bu münasibətlər daha yüksələn xətlə inkişaf edəcək



**İyunun 21-də Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana səfər edib. Tərəflər strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə imzalayıb.**

Bundan başqa, iki ölkə arasında məşğulluq, nəqliyyat, sənaye mülkiyyətinin mühafizəsi, qanunsuz miqrasiyaya və başqa sahələrlə bağlı da əməkdaşlıq sazişləri qəbul edilib. Həmçinin Daşkənddə Azərbaycanla Özbəkistan arasında hərbi sahədə əməkdaşlıq haqqında sazişə imza atılıb. Dövlət başçısının Özbəkistana səfəri zamanı səslənən fikirlər və iki ölkə arasında imzalanan sənədlər dostluq və qardaşlığın sarsılmazlığını bir daha təsdiqləyir.

**Səfəri və imzalanan sənədləri yüksək dəyərləndirən millət vəkili Fəzail Ağamalı ”Şərq”ə bildirib ki, müstəqillik əldə etdiyimizdən bugünədək Özbəkistanla münasibətlərimiz yüksək səviyyədədir:** ”Qardaş Özbəkistanla əlaqələrin tarixi sovet dövrünə qədər çatır. Özbəkistan və Azərbaycan arasındakı ”Pambıq işi”ni xüsusi vurğulamaq lazımdır. Müstəqillikdən sonra əlaqələr fərqli mərhələyə qədəm qoydu. Azərbaycanın ərazi bütövlüyü eks-prezident mərhum İslam Kərimovun vaxtında belə tanındı. Hətta Ermənistanla diplomatik münasibətlər qurulmadı. Həmin ənənələrə sadiq qalaraq rəsmi Daşkəndin münasibəti yüksək səviyyədədir. Ölkə Prezidentinin Daşkəndə rəsmi səfəri, ulu öndər Heydər Əliyev meydanının açılışı mühüm hadisədir. Meydanın mərkəzi hissəsində ulu öndərin böyük memorial kompleksi ucaldılıb. Bu, Özbəkistan xalqının Azərbaycan dövlətinə sonsuz hörmətinin, sevgisinin və rəğbətinin ifadəsidir”.

*F.Ağamalının qənaətincə, indiyə qədərki münasibətlər daha yüksək xətlə irəliləyəcək:* ”Hər iki Prezidentin iradəsi ortadadır. Özbəkistanın mövqeyinin möhkəmlənməsi Türk Dövlətləri Təşkilatının gücünənməsinə imkan yaradacaq. Azərbaycan liderinin dost ölkəyə səfəri bir çox aspektdən tarixi xarakter daşıyır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Qazaxıstan və Qırğızıstana səfər edib. Orta Asiya ölkələrinin qarşılıqlı səfərlərinin baş tutacağına ümid bəsləyirəm.

Özbəkistan səfəri də Türk Dövləti Təşkilatının gələcək perspektivdə möhkəmlənməsinə, gücünənməsinə əhəmiyyətli töhfələrdən biridir”.

**Aygün Tahir**

# Özbəkistan Azərbaycan Prezidentini qalib sərkərdə kimi qəbul etdi

Yalnız qardaş xalq öz qardaşının tarixi zəfərinə belə sevinə bilər

**”Azərbaycan Prezidenti İlham Əliyevin dost və qardaş Özbəkistana səfəri iki ölkə arasında münasibətlərin inkişafına yeni təkan verdi”. Bu sözləri ”Şərq”ə millət vəkili Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, səfər zamanı 20-yə yaxın mühüm sənəd imzalanıb. Bunların hər biri ayrılıqda olduqca əhəmiyyətlidir:**

”Məzmun etibarilə bu sənədlər iki ölkə arasında münasibətlərin böyük spektrini kompleks şəkildə əhatə edir. Buraya iqtisadi, mədəni sahədən başlamış hərbi-texniki əməkdaşlığa qədər geniş blok daxildir. Nəzərə almaq lazımdır ki, Azərbaycan Prezidenti postpandemiya dövrünün ilk rəsmi səfərlərindən birini məhz Özbəkistana etdi. Çünki hazırkı mürəkkəb geostrateji şərtlər milli dövlətlər üçün proqnozlaşdırılması mümkün olmayan təhdidlər yaradır. Belə təhdidləri yalnız etibarlı müttəfiq və tərəfdaşlarla birlikdə dəf etmək mümkündür. Bu təhdidlər sadəcə hərbi-siyasi məzmunlu deyil. Həm də iqtisadi, tibbi-sağlamlıq, informativ və s. olmaqla çoxşaxəlidir. Bütün bunlar milli maraqların qorunması üçün fəal əməkdaşlığı zəruri edir. Özbəkistanda başda Prezident Şavkat Mirziyoyev olmaqla siyasi elita, bütövlükdə özbək xalqı Azərbaycan Prezidenti İlham Əliyevi böyük təntənə və ehtişamla qarşıladı. Özbəkistan Azərbaycan Prezidentini qalib sərkərdə kimi qəbul etdi. Yalnız qardaş xalq öz qardaşının tarixi zəfərinə belə sevinə bilər”.

**H.Babaoğlu vurğulayıb ki, mənəvi-humanitar məsələlərlə yanaşı iki ölkənin qarşılıqlı iqtisadi, hərbi-texniki və**



**siyasi əməkdaşlığı da böyük potensiala və perspektivə malikdir:** ”Bu potensialın realizə olunması regionun iqtisadi və kommunikativ mənzərəsini tamamilə dəyişə bilər. Bunun üçün Azərbaycanın yaratdığı logistika və kommunikasiya layihələri Özbəkistan üçün Qərbə çıxış qapısı rolunu oynaya bilər. Özbəkistan işğaldan azad edilmiş Füzuli rayonunda məktəb inşa etməyi planlaşdırır. Bu bir qardaş töhfəsidir və məhz məktəbin tikilməsi ayrıca məzmun daşıyır. Çünki Özbəkistan nəvailərin, uluqbəylərin vətənidir. Bu səfər və imzalanan sənədlər ən qısa zamanda iki qardaş və dost ölkə arasında strateji müttəfiqlik şərtləri yaradacaq qədər əhəmiyyətlidir”.

**İsmayıl Qocayev**



## Vasitəçilik uğrunda Qərb və Rusiya mübarizəsi qızışır

### Moskva səmimidirsə erməni qoşunları Azərbaycan ərazisindən çıxarılmalıdır

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə Azərbaycan-Ermənistan münasibətlərindən söz açıb.**

M.Zaxarova brifinqdə Rusiya tərəfinin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasında hamıdan çox maraqlı olduğunu bildirib.

"Buna görə də imkan verə bilmərik ki, ayrı-ayrı kənar oyunçuların siyasiləşmiş addımları regionda sülh və sabitliyin bərpa edilməsinə yönəlmiş səyləri boşa çıxarsın"- deyə Rusiya XİN sözçüsü diqqətə çatdırıb.

O, həmçinin üç dövlət liderlərinin bəyanatında nəzərdə tutulmuş öhdəliklərin və vəzifələrin qeyd-şərtsiz yerinə yetirilməsi üçün Rusiyanın əlindən gələni edəcəyini vurğulayıb.

**Mariya Zaxarovanın açıqlamasını "Şərq"ə dəyərləndirən siyasi analitik Asif Nərimanlı hesab edir ki, Zaxarova səmimi deyil:**

"İstər münaqişənin mövcudluğu dövründə, istərsə də postmünaqişə vaxtı sərgilədiyi mövqe Rusiyanın qeyri-səmimiliyini sübuta yetirir. Rəsmi Moskva Azərbaycan və Ermənistana mesaj vermək istəyir ki, yeganə çıxış yolu Moskvanın vasitəçiliyidir.

Ukrayna müharibəsindən sonra Qərb və Rusiyanın Cənubi Qafqazda vasitəçilik üzərindən aktiv fazaya keçən mübarizəsindən qaynaqlanır.

Təbii, Qərbin də öz maraqları var, lakin Rusiya ilə müqayisədə daha səmimi görünür. Brüssel görüşlərində əldə olunan razılaşmalar və praktiki mərhələdə atılan addımlar da bunu təsdiqləyir.

Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş razılaşmalarda isə heç bir irəliləyiş yoxdur.

Moskva həqiqətən də səmimidirsə, öncə 10 noyabr razılaşmasının 4-cü bəndini icra etməli, erməni qoşunlarını Azərbaycan ərazisindən çıxarmalıdır".

**Nihat Müzəffər**

# Gələcəyin yol xəritəsi hazırdır

### Azərbaycanla Özbəkistan arasında strateji tərəfdaşlıq bəyannaməsi qlobal xarakter daşıyır

**İsmayıl Qocayev**

**Mərkəzi Asiya ölkələri Azərbaycanın ərazi bütövlüyü və suverenliyini daima müdafiə edib. Özbəkistan bu baxımdan digər dövlətlərdən xüsusilə fərqlənir. Çünki özbəklər də bolşeviklərin dəstək verdiyi ermənilərin vəhşiliklərindən əziyyət çəkiblər. Rəsmi Daşkənd SSRİ dağılandan 5 il sonra Ermənistanı tanısa da, indiyədək İrəvanda rəsmi səfirliyi fəaliyyət göstərmir.**

Bu, Daşkəndin İrəvana qarşı mövqeyinin dəyişmədiyinin göstəricisi sayılır. Odur ki, Azərbaycanla Özbəkistan bir çox məsələlərdə ortaq olduqları kimi, Ermənistan və ermənilyə münasibətdə də ortaq yanaşmaya malikdirlər. Azərbaycan Prezidenti İlham Əliyevin iyunun 22-də Özbəkistana səfəri başa çatdı. Xatırladaq ki, Azərbaycan lideri sonuncu dəfə 2010-cu il sentyabrın 27-28-də bu ölkədə rəsmi səfərdə olub. Builki səfər isə əvvəlkilərdən fərqlənir. Prezident İlham Əliyev Cənubi Qafqazın aparıcı dövlət olduğunu bütün dünyaya sübut etmiş ölkənin lideri kimi Özbəkistana gedib. Dövlət başçısının 12 ildən sonra Özbəkistana səfər etməsinin böyük əhəmiyyəti var. Bu, ötən illər ərzində qardaş dövlətin Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etməsinə verilən dəyərdir. Prezident İlham Əliyev nümayəndə heyətləri arasında keçirilən görüşdə bu məsələyə toxunaraq ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəklədiyinə görə ayrıca təşəkkürünü bildirib: "Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi və mən Azərbaycan Prezidenti kimi qardaşım Şavkat Miromonoviçin qardaşlıq dəstəyini həmişə hiss edirdim. Bu bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir". Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də bu vacib məsələni vurğulayıb: "Bütün bu illər ərzində Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb. Biz mümkün olan hər yerdə bu barədə danışmışıq, həmişə bunu qətiyyətlə və sərt şəkildə dəstəkləmişik. Bu Qələbə münasibətilə qardaş Azərbaycan xalqını özbək xalqı adından və şəxsən öz adımdan bir daha səmimi-qəlbdən təbrik edirəm".



"Hərbi sahədə əməkdaşlıq haqqında sazişlər müasir dünyada və regionda baş verən hadisələr baxımından çox vacibdir"

**Politoloq Sədrəddin Soltan deyib ki, Özbəkistan prezidentinin qələbə münasibətilə təbriki Azərbaycanda dost, qardaş sözü kimi qəbul edilir.** Çünki Azərbaycan ərazi bütövlüyünün bərpası işində, ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edib. Analitikə görə, bu məqam Azərbaycan xalqı üçün çox qiymətlidir və ikitərəfli münasibətlərin tarixində unudulmaz hadisədir: "Azərbaycan və Özbəkistan arasında 20-yə yaxın sənədin imzalanması iki ölkənin strateji müttəfiqliyinin göstəricilərindəndir. Səfər zamanı imzalanmış sənədlər ölkələr arasında strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəldir. Xüsusilə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə" imzalanması bunu bir daha təsdiqləyir. Cənubi Qafqazda yaranan yeni şərait və dünyann karbohidrogen daşıyıcılarına tələbatın ödənilməsində Azərbaycanın tutduğu mövqe, Rusiya-Ukrayna müharibəsi və başqa amillər iki ölkənin qarşılıqlı münasibətləri və əlaqələrinin də yeni mərhələdə inkişafını aktuallaşdırır. Bu baxımdan, Azərbaycanla Özbəkistan arasında strateji tərəfdaşlığın və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında bəyannamə qlobal xarakter daşıyır. Bu, mahiyyətcə gələcək fəaliyyətin yol xəritəsidir. Həmin sənəddə xarici siyasətin prioritetləri əksini tapıb. Dövlətlərin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub. Eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilib. İki ölkə arasında imzalanan müqavilələr əmtəə dövriyyəsinin artırılması, investisiya layihələri, nəqliyyat-logistika istiqamətləri, kənd təsərrüfatında əməkdaşlığın dərinləşməsi, habelə ölkələr və xalqlar arasında daha artıq əməkdaşlıq üçün gözəl imkanlar yaradacaq".

Ekspert qeyd edib ki, hərbi sahədə əməkdaşlıq haqqında sazişlər müasir dünyada və regionda baş verən hadisələr baxımından çox vacibdir: "Bu, tərəflərə hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əlavə addımlar atmağa imkan verəcək. Kənar təhdidlərin olduğu bir dövrdə bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət mühüm əhəmiyyət kəsb edir. Özbəkistan işğal dövründə Azərbaycanın ərazi bütövlüyünü fəal şəkildə müdafiə etdiyi kimi, Qarabağın bərpasında da əməli işi ilə seçilir. Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevə Füzuli şəhərində hədiyyə kimi məktəb tikmək qərarı, qardaş köməyinə görə də ayrıca təşəkkürünü bildirib. Müqavilə və saşizlərin imzalanması görüləcək işlər üçün vacib sayılsa da, ona əməl etmək də mühüm hesab olunur. Bu baxımdan, prezidentlərin tapşırıqların yerinə yetirilməsini nəzarətdə saxlayacaqları barədə açıqlamaları əlaqələrin intensivləşdirilməsinə ciddi əsas yaradır".

**S.Soltan bəyan edib ki, Prezidentin səfəri, imzalanan sənədlər, dövlət başçılarının çıxış və bəyanatları Azərbaycan-Özbəkistan əlaqələrinin, münasibətlərinin dərinləşməsi, inkişafı, perspektivi baxımından əhəmiyyətlidir:** "Əvvəllər tərəflər bir-birini müxtəlif məsələlərdə dəstəkləyib, müdafiə edirdilər. Bundan sonra tərəflər beynəlxalq normalar çərçivəsinə uyğun olaraq daha əhatəli əməkdaşlıq edəcək. Səfər Azərbaycanın Mərkəzi Asiyada nüfuzunun artmasına, habelə etibarlı tərəfkeş olduğunu bir daha təsdiqləməyə əlavə imkanlar qazandıracaq. İki ölkə arasında perspektivdə təbii qaz, energetika sahəsində əməkdaşlığın genişlənəcəyi istisna olunmur. Zəngin mədəni, tarixi və dövlətçilik ənənəsi olan Özbəkistanla Azərbaycanın strateji müttəfiqliyi regionda da əməkdaşlığa, təhlükəsizliyin təmin olunmasına və inkişafa təkan verəcək".

# Azərbaycan büdcəsi qonşu ölkələrdən ikiqat çoxdur

### "Qazdan gələn gəlirlərimiz neftdən gələn gəlirlə bərabərləşdi"



**Dünən Milli Məclisin növbədənkənar sessiyasının ikinci iclası keçirilib. Maliyyə naziri Samir Şərifovun və Hesablama Palatasının rəhbəri Vüqar Gülməmmədovun qatıldığı iclasda 2022-ci ilin dövlət büdcəsinə dəyişiklik layihəsi müzakirə olunub.**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, büdcə xərcləri proqnozdan artıq icra edilib. Onun sözlərinə görə, dövlət büdcəsinin gəlirləri proqnozdan 1.2 milyard manat artıq yerinə yetirilib. T.Mirkişili qeyd edib ki, cari ilin büdcəsinin xərcləri proqnozdan 70 milyon manat artıq icra edilib: "2022-ci ilin dövlət büdcəsinin gəlirlərinə nəzər saldıqda ilk 5 ay ərzində əldə olunan gəlirlərin 65 faizi neft gəlirlərinin, 35 faizi isə qeyri-neft gəlirlərinin payına düşür".

**"Ölkə iqtisadiyyatının bütün sahələrində artım olub"**

**Maliyyə naziri Samir Şərifov deyib ki, qlobal pandemiya şəraitində 2020-ci ildə ölkə iqtisadiyyatında yaşanan resessiya 2021-ci ildən başlayaraq iqtisadiyyatın sürətli bərpa prosesi ilə əvəzlənib:** "Cari ilin ötən dövründə də bu müsbət dinamikanın davam etməsi müşahidə edilib. Cari ilin beş ayı ərzində 39,6 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 19,5 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM 7,2 faiz, qeyri-neft sektoru üzrə isə ÜDM 11,4 faiz artıb. Ötən ilin eyni dövrü ilə müqayisədə cari ilin yanvar-may ayları ərzində ölkə iqtisadiyyatının bütün sahələrində artım olub. Belə ki, sənaye sahəsində 2,8 faiz, kənd təsərrüfatında 3,6 faiz, tikinti sektorunda 10,0 faiz, informasiya və rabitə sahəsində isə 14,8 faiz real artım müşahidə olunub".

Samir Şərifov 5 aylıq büdcə rəqəmlərini açıqlayıb. Maliyyə naziri qeyd edib ki, 2022-ci ilin beş ayı üzrə dövlət büdcəsinin gəlirləri 11227,0 milyon manat proqnoza qarşı 12442,4 milyon manat və ya 1215,4 milyon manat (10,8 faiz) çox olub.

**"Təklifləri Milli Məclisə təqdim etməyi nəzərdə tuturuq"**

**Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, aparılan təhlillər 2022-ci ilin yenidən baxılan dövlət büdcəsi layihəsində nəzərdə tutulan müdafiə olunan xərclərin qeyri-neft gəlirləri hesabına təmin olunma səviyyəsinin ilkin təsdiq edilmiş büdcə ilə müqayisədə artdığını göstərir.** Onun sözlərinə görə, 2022-ci ilin təsdiq edilmiş büdcəsində 89,4 faiz təşkil etsə də, yenidən baxılmış dövlət büdcəsində qeyri-neft gəlirlərinin artımı nəticəsində bu göstərici yüksələrək 99,8 faiz səviyyəsində proqnozlaşdırılıb: "Büdcə sistemini tənzimləyən qanunvericilikdə mövcud olan boşluq və uyğunsuzluqların aradan qaldırılması, eyni zamanda qabaqcıl təcrübəyə uyğun fiskal sahəyə dair yeni yanaşmaları da ehtiva edən Büdcə Məcəlləsi ilə bağlı ilkin təkliflərimiz Maliyyə Nazirliyinə təqdim edilib. Bu təklifləri Milli Məclisə də təqdim etməyi nəzərdə tuturuq. Qeyd edim ki, təkliflərin demək olar ki, yarıdan çoxu fiskal sahəni tənzimləyən qanunvericilikdə boşluqlarla bağlıdır. Burada biz "Büdcə sistemi haqqında" Qanunun 22 maddəsində, "Dövlət borcu haqqında" Qanunun 5 maddəsində, eyni zamanda digər hüquqi aktların 5 bəndində olan uyğunsuzluq və boşluqların Büdcə Məcəlləsində nəzərə alınmasını təklif etmişik, bundan başqa 27 təklif Məcəllədə yeni yanaşmaların tətbiqi ilə bağlıdır". Palata sədri vurğulayıb ki, ümumiyyətlə, son 5 ildə dövlət büdcəsinin həcmi əhəmiyyətli şəkildə - həm gəlirlər, həm də xərclər üzrə 1,8 dəfə artıb: "Müvafiq dövrdə cari xərclərin təqribən 2 dəfə artması fonunda dövlət büdcəsinin qeyri-neft gəlirləri 1,6 dəfə, qeyri-neft ÜDM 1,5 dəfə artıb. Unutmayaq ki, bu 2 göstərici məhz iqtisadiyyatı təbii resursla zəngin olan dövlətlərdə büdcənin proqnozlaşdırılması zamanı makrofiskal çərçivənin mühüm indikatoru hesab edilir".

**"Azərbaycanın dövlət büdcəsi ikiqat çox olmaqla regionda liderliyi saxlayır"**

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Gürcüstanın dövlət büdcəsi 6.4 milyard dollar, Ermənistanın büdcəsi isə 4.4 milyard dollardır.** O qeyd edib ki, Azərbaycanın dövlət büdcəsi ikiqat çox olmaqla regionda liderliyi saxlayır: "Son bir əsrdə ilk dəfədir ki, qlobal savaşlar sırasında ayaq altında qalmırıq. Yalnış siyasətin nəticəsinə düçar olmuruq. Bu, prezidentimizin siyasətinin nəticəsidir. Büdcədə dəyişikliklər ərzaq xərclərinin artması, qıtlıq və ərzaq böhranına yol verilməməsinə xidmət edir".

**"Olmaz ki, dərslər sentyabrın 1-də başlasın?"**

**Millət vəkili Fazil Mustafa çıxışı zamanı dərslərin sentyabrın 15-də başlaması məsələsindən danışıb:** "Avqustun 21-də müəllimlər işə çıxır. Amma sentyabrın 15-nə qədər maaş alır. Azərbaycan müəlliminə nə qədər çox pul verilsə, halal xoşudur. Amma olmaz ki, elə sentyabrın 1-də dərs başlasın və müəllimlər də o vaxtdan maaş alsın?". O qeyd edib ki, Bilik Gününü sentyabrın 15-də müəyyən edənlər isti havanı əsas gətirirlər: "Həmin şəxsləri Afrikada vəzifəyə təyin etsələr, orada tədrisi qadağan edərlər ki, "istidə dərs olar?!". Yenə məsələni qaldırmaq istəyirəm ki, dərslərin sentyabrın 1-i başlayıb, mayın sonu bitməsi uyğundur. Onsuz da mayın sonunda dərslər dayanır. Müəllimlər iyunun 15-nə qədər boş qalırlar".

**Tarixdə ilk dəfə...**

Millət vəkili Tahir Kərimli təklif edib ki, qazın kubmetrinə görə qiymət neftlə bərabərləşdirilsin: "İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, bizim qazdan gələn gəlirlərimiz neftdən gələn gəlirlə bərabərləşdi. Bu, tarixdə ilk dəfədir. Təklif edirəm ki, əgər elədirsə, qazın kubmetrinə görə qiymət neftlə bərabərləşdirilsə, yaxşı olar".

**"Azərbaycan hökuməti idealdır"**

**Deputat Elşən Musayev deyib ki, zamanla nazirlərlə deputatlar arasında gərginliklər olub:** "Nazirlər əvvəllər deputatların zənglərinə cavab vermirdilər. Hazırda Azərbaycan hökuməti ilə parlament arasında əməkdaşlıq yaranıb. Azərbaycanın hazırkı hakimiyyəti ən ideal hökumətdir. Hökumətə cəmiyyət olaraq dəstək verməliyik. Azərbaycan hökuməti ləyaqətlə işləyir".

**İsmayıl Qocayev**

**Rusiya Xarici işlər naziri Sergey Lavrovun iyunun 23-24-də Azərbaycana işgüzar səfərinin gündəliyi açıqlanıb. Lavrov Bakıda azərbaycanlı həmkarı Ceyhun Bayramovla müzakirələr aparacaq.**



Eyni zamanda Azərbaycan Prezidenti ilə görüş gözlənilir. Səfər zamanı Rusiya və Azərbaycan prezidentlərinin Moskvada 22 fevral 2022-ci il tarixində imzaladıqları müttəfiqlik haqqında bəyannaməyə uyğun olaraq ikitərəfli münasibətlərin gələcək inkişafının bütün

# Siyasi mənzərə sürətlə dəyişir

### Lavrov Bakı səfərindən öncə Tehranda danışıqlar aparacaq

kompleks məsələlərinə baxılacaq. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli razılaşmalarının həyata keçirilməsinin gedişatına xüsusi diqqət ayrılacaq. Rusiya Xarici İşlər Nazirliyindən bildirilib ki, Xarici işlər naziri Sergey Lavrov Azərbaycandan öncə İrana işgüzar səfərə gedəcək. Lavrovun Tehrana səfəri iyunun 22-23-də baş tutacaq. Rusiya XİN başçısının Tehrana səfəri zamanı ikitərəfli münasibətlərin, İranın nüvə problemi ətrafındakı vəziyyətin, Suriya və Ukrayna problemlərinin müzakirə olunacağı bildirilib. Lavrov Tehran səfərindən sonra Bakıya gələcək.

> "XİN başçısı Tehranın Qərblə yeni nüvə anlaşması imzalayıb-imzalamayacağı barədə iranlı rəsmilərin nəbzini yoxlayacaq"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Rusiya və İran Qərbin sanksiyaları altındadır. Ekspert bildirib ki, hər iki ölkə bir-biri ilə siyasi və iqtisadi əlaqələrin inkişafını istəyir:** "Sadəcə həm Rusiyanın, həm də İranın hazırkı ağır iqtisadi vəziyyət şəraitində bir-birilərinə təklif edəcək layihələr çox deyil. İki dövlət arasında hərbi əməkdaşlıq haqqında çox danışılsa da, bu istiqamətdə də irəliləyiş yoxdur. İranın kifayət qədər maliyyəsi yoxdur ki, Rusiyadan almaq istədiyi hərbi texnikanın hesabını ödəyə bilsin. İkinci mövzu Tehranın nüvə çalışmalarıyla bağlıdır. Lavrov Tehranın Qərblə yeni nüvə anlaşması imzalayıb-imzalamayacağı barədə iranlı rəsmilərin nəbzini yoxlayacaq. Suriyaya gəldikdə Rusiya və İran Türkiyənin yeni hərbi əməliyyatının əleyhinədirlər. Tehranda tərəflər bunu vurğulayacaqlar. Ancaq Türkiyə milli və təhlükəsizlik maraqlarından çıxış edir. Əgər bu maraqlar Suriya ərazisində terrorçulara qarşı hərbi əməliyyatı diktə edəcəksə, Moskva və Tehranın bu barədə nə düşündüyü Ankara üçün əsas olmayacaq".

**İsmayıl Qocayev**

# Yağış fəsadlar törədib

### Goranboyda bəzi əraziləri sel suları basıb

**Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən əvvəlcədən xəbərdarlıq edildiyi kimi, dünən gündüz saatlarından başlayaraq respublikanın bir sıra ərazilərində hava şəraiti dəyişib, yağıntılı hava müşahidə olunub. Bəzi yerlərdə yağış xüsusilə intensiv xarakter alıb və müəyyən fəsadlar törədib.**



FHN xəbər verir ki, "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, güclü yağış nəticəsində Goranboy rayonunun Ağcakənd kəndindən qısamüddətli sel keçib və bəzi əraziləri su basıb.

Hadisə ilə bağlı dərhal aidiyyəti qurumlar məlumatlandırılıb, FHN-in müvafiq qüvvələri əraziyə cəlb olunub. Hazırda göstərilən ərazidə selin fəsadlarının aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülür.

*Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək davam edən qeyri-sabit hava şəraiti ilə əlaqədar zəruri təhlükəsizlik qaydalarına riayət etməyə çağırır.*

# "Bizlər özbəklərlə eyni babanın iki övladı qədər doğma və yaxınıq"

## Almaz Ülvi Binnətova: "Başımızın üstündəki zalım və qəddar imperiya tör-töküntüləri biri-birimizi bağrımıza basmağa macal verməyiblər"

**Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində iki ölkənin liderləri - İlham Əliyev və Şavkat Mirziyoyev arasında geniş tərkibdə görüş keçirildi. Görüşdən sonra Azərbaycan və Özbəkistan arasında mühüm sənədlər imzalandı. Azərbaycan və Özbəkistan strateji münasibətlərə malik ölkələrdir.**

Özbəkistan hər zaman Azərbaycanın haqq işinə dəstək olub. Xüsusən, son illər iki ölkə arasında münasibətlərin daha da dərinləşməsi müşahidə olunur. Qarşılıqlı münasibətlərin tarixi isə uzaq əsrlərə gedib çıxır. Özbək və Azərbaycan xalqlarını yaxın milli adət və ənənələr, ümumi dil qrupu, mədəniyyət və din birləşdirir. Uzun illər ərzində hər iki dövlət sovet ittifaqının müttəfiq respublikaları olublar. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistan torpağında sığınacaq tapıb. 40 mindən çox azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. Təbii olaraq, ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri də böyük əhəmiyyət kəsb edir.

Filologiya elmləri doktoru, professor, nəvaişünas-alim Almaz Ülvi Binnətova iki ölkənin tarixi münasibətləri, mədəni-ədəbi əlaqələri və əməkdaşlıq sahəsində görülən işlər barədə "Şərq"ə geniş müsahibə verib. Professor bildirib ki, Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı üçün əhəmiyyətli işlər görülsə də, qətiyyən kifayətlənmək olmaz. Çünki görüləsi işlər hələ çoxdur.

**- Almaz xanım, iki qardaş ölkənin dah sıx əməkdaşlığı, qarşılıqlı səfərlərin çoxalması nə qədər vacib və faydalıdır?**

- Əlbəttə, belə görüşlər çox faydalı, vacib, çox da gözəldir. Əslində iki ölkə arasında bir bayram ovqatı yaşanır. Hamı sevinir, hamı sevinc içindədir. Elə qarşılanma mərasimindən hiss olunur ki, bu görüşə hazırlıqlar çoxdan başlayıbmış. Ümumiyyətlə, layiqli nəticələr əldə edilməsi üçün belə səfərlərə hazırlıq uzun və hərtərəfli aparılır. İki ölkə arasında gələcək əməkdaşlığa möhkəm zəmin yaradılması üçün hər xırda detal belə dəqiqliklə ölçülüb biçilir. Hər addım görüləcək işlər üçün bir mesaj, işarətdir. Prezidentimizin qarşılanma mərasimində yeni salınmış böyük bir bağın içində Heydər Əliyevin xatirə kompleksinin (barelyefinin) açılışı, Daşkəndin mərkəzindən keçən bir küçənin ulu öndərin şərəfinə adlandırılması həmin görüşlərin qardaşlıq, dostluq münasibətləri zəminində qurulmasına işarədir. Göysaray iqamətgahında baş tutan səmərəli danışıqların nəticəsi olaraq sənədlərin imzalanma mərasimi keçirildi. İyunun 20-də böyük bir nümayəndə heyətinin səfəri çərçivəsində bir çox nazirliklərin görüşü, gərəkli və lazımlı məsələlərə dair sənədlərin imzalanması üçün danışıqların əsası qoyuldu. Dövlət başçılarının iştirakı ilə iki ölkənin hökumətləri, nazirlikləri və idarələri arasında isə həmin sənədlərin - 18 sənədin imzalanması mərasimi baş tutdu. Bunlar, xüsusən, sənaye, beynəlxalq yol əlaqəsi, qeyri-qanuni miqrasiya ilə mübarizə, karantin və bitkilərin mühafizəsi, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində regionlar arasında əməkdaşlıq haqqında sazişlər, habelə turizm sahəsində əməkdaşlıq proqramıdır. Danışıqlar zamanı mədəni-humanitar əlaqələrin gücləndirilməsi, xüsusilə də Mədəniyyət və Kino Günlərinin keçirilməsi, universitetlər, elm müəssisələri, idman və gənclər təşkilatları arasında əlaqələrin gücləndirilməsinə dair bir çox digər razılıqlar əldə olunub. İmzalanan sənədlər təbii ki, hər iki ölkə üçün son dərəcə faydalı və məsləhətlidir. Özbəkistan və Azərbaycan liderləri Göysaray iqamətgahında yeni arzuların rəmzi olaraq birlikdə ağac əkiblər. Dövlət başçılarının əkdiyi ağac iki xalq arasındakı arzuların, xalqlarımızın dostluğunun rəmzi kimi böyüyəcək, daha da möhkəmlənəcək. Qeyd edim ki, iki qardaş xalqın dostluq münasibətlərinin tarixi Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Mirzə Uluğbəy, Əlişir Nəvai, Məhəmməd Füzuli əbədiyyəti zamanındandır. Bizlər eyni babanın iki övladı qədər doğma və yaxınıq. Ona görə də Azərbaycan-özbək xalqlarının dostluq, qardaşlıq tarixini konkret rəqəmlə demək mümkün deyil, hətta əsla!



"İndi iki ölkə arasında bir bayram ovqatı yaşanır. Hamı sevinir, hamı sevinc içindədir. Elə qarşılanma mərasimindən hiss olunur ki, bu görüşə hazırlıqlar çoxdan başlayıbmış"

**- Son dövrlərdə, xüsusən Vətən müharibəsindən sonra Orta Asiyanın türk respublikaları ilə əlaqələrə xüsusi önəm verilir. Türk ölkələrinin birliyinin inkişafı hansı cəhətlərdən zərurət təşkil edir?**

- Vətən müharibəsində türk xalqları Azərbaycan oğullarının sücaətini, qeyrətini, namusla haqq davasını, gücünü gördülər. Türkə yaraşan igidliklərini gördülər. Əslində hər şey üçün zaman lazımdır. Başımızın üstündəki zalım və qəddar imperiya tör-töküntüləri biri-birimizi bağrımıza basmağa macal verməyiblər axı. Yoxsa, zatən həmişə bir qəlb olaraq döyünmüşük, içimizdə biri-birimizə sığınmışıq. Biri-birimizin halına yanmışıq, tarixi fürsət yetişən kimi qollarımızı geniş açmaqdan çəkinməmişik. Çünki bizlərin biri-birimizə heç vaxt düşmənçilik hissi olmayıb. Dediyim kimi, bir babanın övladları olduğumuzu qan yaddaşımızda dərk etmişik. Türk Dövlətlər Təşkilatı çərçivəsində türk ölkələrinin birliyinin inkişafı hər cəhətdən - siyasi, iqtisadi, mədəni sahələrdə, bütövlükdə gərəkli və vacib olan hər məsələdə bir yerdə olmağımız üçün çox vacibdir, zəruridir. Dünyanın hazırkı durumunda, dədələrimiz demişkən, türkün türkdən başqa dostu yoxdur. Biz bir olarıqsa, bizi yenən, bizə qalib gələn kimsə ola bilməz.

**- Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələrinin inkişafı hansı səviyyədədir? Əlaqələri qənaətbəxş hesab etmək olarmı, yoxsa bu sahədə görüləsi işlər çoxdur?**

- Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrinin inkişafı çox yüksək səviyyədədir və hər gün bu səviyyəni bir boy da qaldırmaq vacibdir, lazımdır. Yəni olan bir şeylə kifayətlənmək olmaz. Hazırda dünya innovasiyalar meydanıdır. O meydanda hər gün görünmək, öyrənmək və öyrətməkdən usanmaq lazım deyil. İndiyə qədər görülən işləri qənaətbəxş hesab edə bilərik, eyni zamanda görüləsi də o qədər işlər var ki! Yetər ki, könül istəsin. Baxın, əgər dövlət səviyyəsində ciddi anlaşmalar, müqavilələr, razılaşmalar varsa, deməli, hələ görüləcək işlər çoxdur. Bütün görüləcək işlər də əlbəttə qarşılıqlı olaraq görülməlidir. "Səni sevəcəyəm sən sevməsən də" - prinsipi ilə yox, məhz qarşılıqlı.

**- Əlişir Nəvai və türk dünyasının digər dahi şəxslərinin, şair və alimlərinin türk dünyasında ümumi təbliği nə qədər önəmlidir?**

- Nizami Gəncəvi türk dünyasının Günəşidirsə, Əlişir Nəvai türk dünyasının baş tacıdır. Əlişir Nəvai türkcə ilk "Xəmsə"ni yazdı, türkcə dörd divan bağladı, türkcə 22 adda nəzəri əsərlər - elmi-filoloji və dini-təsəvvüfi əsərlər yazdı. Türk yazı dilini dünya meydanına çıxardı. Dünya ədəbiyyatı sıralarına türkcəni qoydu. Bunlar tarixi xidmətlərdir. Fikir verin, Nizami sarayda yaşamadı, amma saray padşahlarının sifarişi ilə bəşəri əsərlər yazdı. Nəvai sarayda yaşadı, amma saray ədəbiyyatı yazmadı. Zamanlarının hökmü, taxtı-divanı belə idi. Bu klassikləri öyrənməyin, təbliğ etməyin mənaca, dövləti, milli əhəmiyyəti çox böyükdür. İlk olaraq dünya klassikləri ilə yanaşı dayana biləcək söz-fikir sahibi şəxsiyyətlərimiz var. İkincisi, onların yaratdıqları ədəbiyyat bəşəri məna daşıyır. Ədalətli, humanist, xeyirxah niyyətli, haqqı müdafiə edən əsərləri ilə dünyanın hər bucağında qəbul edilən müdriklərdir. Üçüncüsü, onların timsalında qürurlanırıq ki, biz bu ədəb-əxlaqda, bu tərbiyədə, bu hikmətdə olan babaların övladlarıyıq. Türk dünyasının digər dahi şəxslərinin, şair və alimlərinin qoyub getdikləri mənəvi irsləri milli sərvətimiz olmaqla yanaşı, həm də hər biri bir məktəbdir, onlardan öyrənmək, öyrənmək, öyrənmək. O məktəbdə yenilməz, qəhrəman, müdrik oğullar yetişər. Baxın, Özbəkistanda bütün ali məktəblərdə, orta məktəblərdə artıq neçə illərdir ki, ayrıca "Nəvaişünaslıq" fənni tədris olunur. Nəticəsi də çox uğurlu alınır. O fənni ədəb-əxlaq, müdriklik dərsi adlandırardım. Çox istərdim ki, bizdə də ayrıca "Nizamişünaslıq", "Nəsimişünaslıq", "Füzulişünaslıq" fənni tədris olunaydı. Nəvai Nizami məktəbində yetişib. Hər əsərinin əvvəlində dönə-dönə yazır. Nəvai Heratda böyük məktəblər açdı. Bütün Şərq Herata axışdı "Nəvainin qurduğu Nizami məktəbində dərs almaq üçün. Azərbaycandan nə qədər gənclər o məktəbdə dərs aldılar. Hətta Nəvai bəyəndiyi gəncləri Heratda işə cəlb edirdi. Sultan Hüseyn Bayqaranın övladlarına dərs deyən Azərbaycan gənclərindən Ziya Təbrizinin adını çəkmək istəyirəm. Gənc oğlan Herat hökmdarının övladlarının təlim-tərbiyəsi, ustadı olub. Bunlar klassiklərin məktəblərindən dərs alanlar idilər. Nizami hikmətlərinin dərinliklərinə enən gənclərimizin yaradacağı xarüqələri indidən gözümün önünə gətirirəm. Bir düşünün: İnnovativ dünya və klassik irs-elm-əxlaq

**- Azərbaycan-Özbəkistan arasında elmi müstəvidə əlaqələr, akademik münasibətlər hansı miqyasdadır?**

- Qeyd etdiyim kimi, bu iki xalq biri-birindən öyrənməkdən, dərs almaqdan çəkinməyiblər. Sovetlər dönəmində SSRİ məkanında kim harada istəyirdisə gedib təhsil ala bilirdi. Müstəqillik illərində bu vəziyyət bir qədər dəyişdi. Bunun üçün iki ölkə arasında elm, təhsil sahəsində əməkdaşlıq müqavilələri (burada təhsil haqqı, diplomların tanınması məsələsi və s.) lazımdır ki, işlər rəsmi zəmində həll olunsun. Hazırda təmsil olunduğum AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu dünyanın bir çox ölkələri ilə belə müqavilələri imzalayıb. Özbəkistan Respublikası haqqında da bu fikri söyləyə bilərəm. İnstitutda ayrıca "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsi yaradılıb. Şöbənin nəzdində "Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzi" var. Bu şöbədə ədəbiyyatlarımızı qarşılıqlı öyrənməklə, tədqiq etməklə yanaşı kitablar da yazılır, yeni kadrlar hazırlanır. İlk dəfə "Azərbaycanca-özbəkcə" (23.000 söz) lüğət yazdıq, Əlişir Nəvai, Zahirəddin Məhəmməd Babur, Maqsud Şeyxzadə və başqa məşhur ədəbi simaların yubileylərini keçirdik. Özbəkistanın bir çox institutlarına mühazirələr, ustad dərsi keçmək üçün dəvətlər alırıq. Bunlar əlbəttə böyük missiyadır. Belə bir işlərin nəticəsi olaraq, Beynəlxalq Türk Akademiyası AMEA-nın vitse-prezidenti, İnstitutumuzun direktoru, akademik İsa Həbibbəyli "Əlişir Nəvai" qızıl medalı ilə təltif olundu. Özbəkistanda bir neçə institutun "Fəxri Professor"u diplomu ilə təltif edilmişəm. Özbəkistan Yazıçılar Birliyinin Fəxri üzvü seçilmişəm. Bütün bunları haysız-küysüz, özümüzü reklam etmədən işimizi görürük, bu təltiflər isə hər dəfə sürpriz kimi təqdim olunur. Əlbəttə sevinirik. Amma bu təltifləri almağı qarşımıza məqsəd qoyub iş görmürük, ona görə də adı sürpriz olur. İki dəfə Əfqanıstan - Herat şəhərinə nəvaişünas kimi dəvət almışam, Heratda Əlişir Nəvainin məqbərəsini, Kabildə Zahirəddin Məhəmməd Baburun məqbərəsini ziyarət etmişəm, Məzari-Şərifdə Əlişir Nəvainin öz hesabına tikdirdiyi dünyanın yeddi möcüzəsindən biri hesab olunan "Məzari-Şərif Camisi"ni və s. yerləri ziyarət etmişəm. O torpaqlar adama çox doğma, çox əziz, çox mübarək təsir bağışlayır. O torpaqlarda bir zamanlar Şərq Mədəniyyət Mərkəzi olub. Elmin, ədəbiyyatın XV-XVI əsrlərdə qızıl taxtı Heratda ucalıb.

**- Tarixi bağlara əsaslanan mədəni-ədəbi əlaqələrin inkişafında medianın, qeyri-hökumət təşkilatlarının rolu nə qədərdir?**

- Medianın rolu çox böyükdür. Yetər ki, qarşılıqlı əlaqələrlə işlənsin. Elmi əsərlərin başa gəlməsi bir az zaman alır. Amma media əlaqələri yarandığı andan fəaliyyətlərini birləşdirə bilir. Qeyri-hökumət təşkilatlarının rolu haqqında bir şey bilmirəm. Bəzən izləmək istəmişəm, amma tez yorulmuşam. Çünki daha çox şəxsi maraqlar üzərindən qurulur və ictimai xeyir-bəhri hiss olunmur. Ona görə bu haqda danışmaq mənə çətindir.

**- Tez-tez gündəmə gələn məsələlərdən biri də türk dövlətlərinin birliyinin möhkəmlənməsi, ortaq dil, universitet və müxtəlif sahələrdə platformaların yaradılmasıdır. Bu istiqamətdə atılan addımları necə dəyərləndirirsiniz?**

- Türk dövlətləri birliyini tarix öz təkərləri üzərinə alıb və bu istiqamətdə yoldayıq. Yolumuza hər kəs öz işığını salsa, mənzil başına yetmək elə də uzun zaman almayacaq. Burada dünya diplomatiyası da gözə alınmalıdır. Çünki belə bir qurumun hasilə gəlməsini nə Avropa, nə Amerika, nə də bir başqaları istəyir. Ortaq dil məsələsi də birdən-birə başa gələcək hadisə olmayacaq. Bu gün bütün türk dövlətləri istər rəsmi, istərsə də qeyri-rəsmi görüşlərində hər kəs öz ana dilində danışır, hamı da bir-birini çox gözəl anlayır. Ortaq dilin hasilə gəlməsinin konkret tarixi heç zaman olmayacaq, zaman-zaman elmi, ədəbi, iqtisadi, siyasi görüşlər irəlilədikcə həll olunacaq. Zirvəyə çatmaq üçün qan-tər tökürsən, illərini, ömrünü bu yolda qoyursan, zirvəyə çatanda isə hər şeyin adi bir maraq olduğunu dərk edirsən. Əlişir Nəvainin "Lisanut-teyr" təsəvvüfi əsərində bu yol o qədər gözəl anladılır ki, son nəticədə hər şey sadə və adi həllində olur. Vaqiflər, Məhtimqulular dövrünə qədər ortaq dilimiz olub, ortaq ədəbiyyatımız, ortaq mədəniyyətimiz olub. Türk ailəsi böyüdükcə hər ailənin öz dilinin olması faktı sövq təbii yaranıb. Nəvai milliyətcə uyğur olub, amma böyük bir türk mədəniyyəti, ədəbiyyatı yaradıb. Əslində biz elə ortaq dilin başa çatması dediyimiz bir anlamı haqlamaq istəyiriksə, əlbəttə universitetlər, müxtəlif türk qurumlarının yaranmasına çalışmalıyıq və orada iş görmək lazımdır. Gecəli-gündüzlü işləmək lazımdır. Nəfsindən (şəxsiyyətə pərəstiş) uzaq olub ümumi işlər üçün can yandırmaq lazımdır. Türk adı ilə başlayan bütün qurumları alqışlamaq və kömək, birlik zəminində sən də öz dəstəyini əsirgəməyəsən. Bütün bunların açarı elmdədir. Dost, qardaş birliyində və biri-birimizi dinləmək, eşitmək niyyətindədir.

**İsmayıl Qocayev**

# Kremlin avazı yaxşı gəlir

## Rusiya sülh öhdəliyini tezliklə həll etməlidir



Azərbaycan Moskvanın əvəzinə öhdəliklərin icrasına başlasa, nə Rusiya, nə də regiona buraxmaq istəmədiyi xarici güclər heç nə edə bilməyəcək

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Moskvanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasında hamıdan çox maraqlı olduğunu deyib. Zaxarova bildirib ki, Rusiya ayrı-ayrı kənar oyunçuların siyasiləşmiş addımlarının regionda sülh və sabitliyin bərpa edilməsinə yönəlmiş səyləri boşa çıxarmasına imkan verməyəcək.**

O vurğulayıb ki, Rusiya üç dövlət liderinin bəyanatında nəzərdə tutulmuş öhdəliklərin və vəzifələrin qeyd-şərtsiz yerinə yetirilməsi üçün əlindən gələni edəcək. Rusiya XİN təmsilçisi vurğulayıb ki, Kreml Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının və iqtisadi əlaqələrin bərpa olunması ilə bağlı Üçtərəfli İşçi Qrupun fəaliyyətinin aktivləşməsini alqışlayır: "Bildiyiniz kimi, İşçi Qrupun iyunun 3-də X iclası keçirilib. Tərəflər bir sıra məsələlər üzrə mövqelərini yaxınlaşdırıblar. Müzakirələr 16-17 iyun tarixlərində Peterburq İqtisadi Forumu çərçivəsində də davam etdirilib. Rusiya tərəfi məlum prosesə kömək etməyə davam edir".

Mariya Zaxarova "altılıq" platformasından da söz açıb. Qeyd edib ki, "3+3" formatında ikinci görüşün tarixi və keçiriləcəyi məkanı razılaşdırılır: "Hesab edirik ki, bu barədə məlumatı tədbirin təşkilatçı ölkəsi təqdim etməlidir".

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Rusiyanın strateji planlarının Vladimir Putinin dilindən səslənməsindən sonra hansısa rəsminin qulağa xoş gələn gözəl sözlər söyləməsinin heç bir prinsipial əhəmiyyəti yoxdur.** Analitikin fikrincə, Putinin "bütün keçmiş sovet əraziləri Rusiyanın tarixi əraziləridir" sözündən sonra Moskvanın sülhsevər missiyasından, konstruktiv addımlardan danışmaq sadəlövhlükdür: "Rusiya ətraf regionlarına kənar qüvvələrin daxil olmasına Ukraynaya hücum etməklə cavab verdi. Bununla da digər regionlara dərs verməyə çalışdı. Nəticə göz önündədir. Əlbəttə, Zaxarovanın açıqlamalarını Ukraynada baş verənlərdən sonra Rusiyanın mövqeyində müsbət dəyişiklik kimi qəbul etmək istərdik. Amma bu, böyük ehtimalla Rusiyanın gələcək planlarının həyata keçməsi üçün deyilən fikirdir. Problemi yaradan və 30 il dondurub saxlayan Rusiyanın "bölgədəki problemləri özümüz həll edəcəyik" vədi heç vaxt inandırıcı ola bilməz".

**Ekspert qeyd edib ki, Azərbaycan dövlətinin problemdə son nöqtəni qoymağa gücü və iradəsi çatır:** "Əgər Rusiya həqiqətən də regionda problemi həll etmək istəyirsə və səmimidirsə, bunu tezliklə etməlidir. Təbii ki, məsələ Azərbaycan dövlətinin istədiyi şəkildə həll edilməlidir. Rusiya üçtərəfli sazişdə nəzərdə tutulmuş 5 ildən geriyə qalan müddəti səmərəli dəyərləndirməlidir. Bu günə kimi əməl etmədiyi öhdəliklərini yerinə yetirməlidir. Azərbaycan Moskvanın əvəzinə öhdəliklərin icrasına başlasa, nə Rusiya, nə də regiona buraxmaq istəmədiyi xarici güclər heç nə edə bilməyəcək. Azərbaycan yenə də beynəlxalq hüququn ona verdiyi səlahiyyətlər çərçivəsində öz problemini özü həll edəcək. Bundan sonra Rusiya regiona buraxmaq istəmədiyi ölkələr kimi özü də kənar qüvvəyə çevriləcək".

**İsmayıl Qocayev**

**İyunun 21-i Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan respublikasına səfər edib. Azərbaycan lideri səfər çərçivəsində özbəkistanlı həmkarı Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüş keçirib.**



Müzakirə zamanı İ.Əliyev qeyd edib ki, dünyadakı vəziyyət nəzərə alınmaqla hər bir ölkə müdafiə qabiliyyətini möhkəmlətməyə çalışmalıdır. Bu gün Şavkat Miromonoviç ilə dialoqumuzun bir hissəsi bu məsələyə həsr edilib. Müvafiq tapşırıqlar verilib: "Düşünürəm ki, hərbi əməkdaşlıq, hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əməkdaşlıq istiqamətində əlavə addımlar atılacaq. Mənim fikrimcə, bu sahədə də qarşılıqlı fəaliyyətimiz möhkəmlənəcək, çünki həm Özbəkistanda, həm də Azərbaycanda elə mövzular var ki, onları müzakirə etmək lazımdır, kənar təhdidlər var, ölkələrimiz və xalqlarımız onlarla üzləşməli olurlar. Buna görə də düşünürəm ki, bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət həmişəkindən daha vacib olacaq".

# Özbəkistan dost, qardaş ölkədir

## İki ölkə arasında hərbi-texniki əməkdaşlıq xüsusilə vacibdir

**Azərbaycan və Özbəkistanın hərbi sahədə əməkdaşlığının əhəmiyyəti barədə "Şərq"ə danışan millət vəkili Elman Məmmədov bildirib ki, hərbi sahədə sənədlər imzalanıb və ölkələr arasındakı əlaqələr getdikcə daha da inkişaf etdiriləcək:** "Azərbaycan və Özbəkistanın münasibətləri hər zaman yüksək səviyyədə olub. İndi də qarşılıqlı əlaqələrin irəliləməsi üzrə işlər aparılır və davam etdiriləcək. Bu, hərbi və digər müstəvilərdə çox vacibdir. Özbəkistan Azərbaycanla qardaş ölkədir. Hər iki dövlətin bir-birinə bağlı tarixi kökü var. Orada Cənab Prezidentimizin qarşılanma mərasimi, bir çox şəhərlərə səfəri, keçirilən tədbirlər də buna sübutdur. Özbəkistan dövlət rəhbərinin dostməramlı şəkildə verdiyi bəyanatları, çıxışları sevindirici haldır".

*Deputat hesab edir ki, Azərbaycanın müttəfiqlərinin sayı nə qədər çox olsa, bu, dövlətçilik, dövlətçiliyin müdafiəsi, təhlükəsizlik və inkişafımızın davamlı olması üçün mühümdür:* "Çox vacib səfər və görüş baş tutub. Özbəkistan həmçinin işğaldan azad olunmuş ərazilərimizin bərpası məsələsində də töhfəsini verməyi özü üçün şərəf sayır. Bunu bəyan etməsi də ayrıca bir ürəkaçan məqamdır".

**Sücayət Mehti**



# Məmurlar yuxuya gedib

## "Bir nəfər çıxıb açıqlamır ki, quru sərhədləri niyə, hansı səbəbdən açılmır"

**"Sərhədləri açın, rahat gedib gələk. Atanamıza həsrət qalmışıq". Belə çağırışlar artıq çoxalır. 2020-ci ildən - koronavirus pandemiyası elan olunandan, məlumdur ki, sərhədlər qapandı. Uzun müddətdən sonra hava nəqliyyatı ilə gediş-gəliş şərtləri yüngüləşsə də, quru sərhərdlər hələ də bağlıdır. Bu isə sərhədyanı bölgələrdə yaşayan əhali, həmçinin qonşu ölkələrə səfər edənlər üçün böyük problemə çevrilib.**

Ticarət əlaqələrini, qazanc mənbələrini, yeri gəlsə, lap turizm potensialının zəifləməsini də bir kənara qoymaq olar (hərçənd, bunların hər biri ilk növbədə sərhədyanı dövlətlərə, ardınca da bütün vətəndaşlara xeyirdir - M.R.), amma qonşu dövlətlərin ərazisində yaşayan valideynlərini, təhsil alan, çalışan övladlarını ziyarət edə bilməyənlərin qəlb ağrılarına soyuq yanaşmaq olmur. Pandemiya başlanandan qohum-əqrəbasını, doğma el-obasını ziyarət edə bilməyənlər var və onlar üçün quru sərhədlərin hələ də qapalı qalması əsl əziyyətdir. Azərbaycan faktiki Rusiya, Türkiyə (Naxçıvan ərazisiylə), Gürcüstan və İranla quru sərhədlərinə malikdir. Və hər 4 dövlətlə də az və ya çox dərəcədə qohumluq bağları mövcuddur, iqtisadi, ticari əlaqələr də üst səviyyədədir. Quru sərhədlərin qapalı qalması isə insanların həyat şərtlərini ağırlaşdırır, maddi sıxıntılar bir yana, üstəlik insanlar mənəvi travma da yaşayır. Pandemiya demək olar ki, başa çatıb artıq. Karantin qaydalarında xeyli yumşalmalar edilib. Peyvəndləmədə də yüksək göstəricilərə nail olunub. Elə isə sərhədlərin hələ də açılmamasının səbəbi nədir?

Qeyd edək ki, quru sərhədlərin açılmasının zəruriliyi ilə bağlı son günlərdə geniş müzakirələr aparılır. Millət vəkilləri də bu problemi qaldırır, quru sərhədlərin bağlı qalmasının həm ölkə iqtisadiyyatına, həm də vətəndaşlara zərərindən danışır, məsələnin tezliklə həll edilməli olduğunu bildirirlər. Millət vəkili, iqtisadçı Vüqar Bayramov konkret faktlar ortaya qoyub. Millət vəkili bildirib ki, Azərbaycana gələn turistlər arasında adətən Türkiyə, Rusiya, Gürcüstan və İran üstünlük təşkil edirdi. Lakin pandemiya səbəbindən quru yolların bağlanması bu ölkələrdən gələnlərin sayında kəskin azalma ilə müşayiət olunur. "2019-cu ilə ölkəyə 3.2 milyon turist gəlmişdisə, 2021-ci ildə pandemiya səbəbindən bu rəqəm 791,8 minədək azalıb. Bu ilin ilk aylarından etibarən ölkəmizə gələnlərin sayında artımın olmasına baxmayaraq, hələ də rəqəmlər pandemiyadan əvvəlki səviyyədən aşağıdır. Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhfə verir".

Millət vəkili vurğulayıb ki, artıq əksər ölkələrdə karantin qaydaları kəskin yumşaldılıb. Azərbaycanda da karantin qadağalarının əksəriyyəti aradan qaldırılıb. Bununla yanaşı, bu sektorun inkişafı baxımından quru sərhədlərinin mərhələli açılışı ölkəyə gələn turistlərin sayının kəskin artmasına səbəb ola bilər: "Statistika da göstərir ki, Azərbaycana səfər edənlərin əksəriyyəti qonşu ölkələrdən gəlirlər. Onlar eyni zamanda quru sərhədlərdən istifadəyə üstünlük verirdilər. Bu ilin 5 ayında da Azərbaycana gələn turistlərin 68.9 faizi quru sərhədlərimizin olduğu ölkələrin payına düşüb. Yəni Azərbaycana gələn hər 10 turistin 7-sinin vətəndaşlığı olduğu ölkə ilə quru sərhədlərimiz var. Bu baxımdan, quru sərhədlərin açılması ölkəyə daha çox turistin gəlməsinə səbəb olmaqla real sektora dəstək ola bilər".

**İqtisadçı-ekspert Fuad İbrahimov da "Şərq"ə açıqlamasında bildirib ki, münbit şəraitin yaranmasına baxmayaraq quru sərhədlərin qapalı qalmasının tutarlı bir səbəbi varsa, bu, mütləq açıqlanmalıdır:**

- Mən bu məsələdə məmur hərəkətsizliyini əsas səbəb kimi görürəm. Susqunluq, hərəkətsizlik, süstlük var, bir nəfər də çıxıb açıqlama vermir ki, quru sərhədlər niyə, hansı səbəbdən açılmır. 2 il əvvəl pandemiya səbəbindən quru sərhədlərin bağlanmasına qərar verilib, 2 il keçib artıq, vəziyyət müsbətə doğru dəyişib, amma bizim bəzi məmurlar sanki yuxuya gediblər, gözləyirlər ki, kimsə bunları oyatsın, kimsə onların əvəzinə təkliflə çıxış etsin, problemi qaldırsın. Hazırkı şəraitdə quru sərhədlərin bağlı qalmasının əsaslı bir səbəbi görünmür; yoluxma statistikası müsbətdir. Peyvəndləmə faizi yüksəkdir. Təkcə bizdə deyil, eyni zamanda quru sərhədlərimiz olan qonşu dövlətlərin də statistikası var, koronaviyanın məlum problemləri var, müharibə şəraitidir və sair. Hərçənd bu məsələnin Azərbaycanla əlaqələri baxımından həlli mümkün görünür. Amma Gürcüstan, İran, Türkiyədə hazırda stabil vəziyyətdir. Məncə, quru sərhədlərin açılmasına əsaslı bir maneə yoxdur. Sadəcə, bu barədə dəqiq məlumat verən, açıqlama ilə çıxış edən yoxdur. Bu da vətəndaşları bir tərəfdən qıcıqlandırır.

**F.İbrahimov bildirdi ki, hava nəqliyyatı ilə səfərlər quru yolla gediş-gəlişi heç vaxt kompensasiya edə bilməz:** - Birincisi, təyyarələrin sayı azdır, tələbat ödəniləcək sayda təyyarə reysləri təşkil etmək mümkün deyil. İkinci, təyyarə biletləri çox bahadır. Bir təyyarə biletinin qiymətinə 10 nəfər avtobusla, şəxsi avtomobillə qonşu ölkələrə gedib-gələ bilər. Qiymət, xərclər arasındakı fərq o qədər böyükdür ki, təyyarə reyslərinə üstünlük verilməsini düşünmək belə absurddur. Quru sərhədlər açılsa, sərhədyanı bölgələrdə də hərəkətlilik yaranacaq, iqtisadi vəziyyət normallaşacaq. Turizmə dəstək öz yerində, quru sərhədlərin açılmasıyla yaranmış borclanmaları da aradan qaldırmaq mümkündür. Baxın, hava nəqliyyatı ilə gediş-gəlişə COVİD pasportu, buster doza, filan tələb olunur. Eyni tələbləri quru sərhədlərlə gediş-gəlişə tətbiq etmək olar da!.. Burda nə böyük problem var axı?!. Hesab edirəm ki, quru sərhədlər açılsa, bu, peyvəndləmədə yenidən canlanma yaradacaq. Qonşu ölkələrə səfər etmək istəyən, lakin peyvənd olunmamış vətəndaşlar məcburiyyət qarşısında peyvənd vurduracaqlar. Peyvəndləmə faizi daha da artacaq. Problemi sərhəd-keçid məntəqələrində yarana biləcək sıxlıqla əlaqələndirirlərsə, bunun həlli yolları var. Sərhəd-keçid məntəqələri fasiləsiz işləsin, uzun növbələr yaranmasın. Elektron portallar vasitəsilə vətəndaşlar qeydiyyata düşsün, peyvənd sertifikatları qeydə alınsın. Bir də ki, quru sərhədlərlə yükdaşımalar onsuz da həyata keçirilir. Yükdaşımalar zamanı yaranan sıxlıq heç əhalinin gediş-gəlişi zamanı yaranmır. Hansı tərəfdən baxsan quru sərhədlərin açılması əlverişlidir, lazımdır. Sərhədlərin bağlı qalmasına da əsaslı bir səbəb görünmür. Bu, əsassız məhdudiyyətdir.

rusla bağlı. Hesab edirəm ki, qonşu ölkələrlə quru sərhədlər ikitərəfli qaydada açılmalıdır. Məncə, bunun üçün təkcə Azərbaycanın deyil, qonşu dövlətlərin də siyasi iradəsi vacibdir. Yəni bu məsələ birtərəfli qaydada həll edilə bilməz. Amma biz bilmirik ki, qonşu dövlətlərin mövqeyi necədir? Məsələni uzadan, yubadan hansı dövlətdir? Ola bilməz ki, 4 ölkənin 4-ü də, quru sərhədlərin açılmasına qarşı çıxsın. Çünki bu vəziyyət heç bir dövlətə, əslində sərfəli deyil. Əksinə, bütün qonşu dövlətlərə xeyirdir. Həm dövlət miqyasında iqtisadi mənfəət baxımından, həm də vətəndaşların mənfəəti baxımından. Tutalım, hazırda Rusi-

**Məlahət Rzayeva**

# Tehran izin verməz

## İranda Azərbaycanın mədəniyyət mərkəzinin açılması mümkün deyil



**Azərbaycanın Mədəniyyət naziri Anar Kərimov Azərbaycanın İranda mədəniyyət mərkəzinin açılmasını təklif edib. Bunu A.Kərimov İranın İslami əlaqələr və mədəniyyət təşkilatının sədri Məhəmməd Mehdi İmanipurla görüşdə bildirib. Həmçinin M.İmanipur İran və Azərbaycan arasında diplomatik əlaqələrin 30 illiyinin ildönümü ərəfəsində iki ölkə arasında əlaqələrin möhkəmlənməsi üçün yeni üfüqlər yarandığını vurğulayıb.**

Eyni zamanda İran və Azərbaycan arasında mədəniyyət sahəsində möhkəm əlaqələrin olduğunu qeyd edib.

"İki ölkə mədəniyyət sahəsində əlaqələrin inkişafına səy göstərməlidir".

A.Kərimov Azərbaycanın İranla müştərək mədəni, incəsənət, teatr və kino sahəsində əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb. Bununla yanaşı İran və Azərbaycan arasında müştərək mədəniyyət mərkəzlərinin yaradılması zərurətindən danışıb. İranın mədəniyyət mərkəzinin Bakıda fəaliyyətindən məmnunluğunu ifadə edib: "İstərdik ki, Azərbaycanın İranda mədəniyyət mərkəzi təsis olunsun və fəaliyyət göstərsin".

Nazirin sözlərinə görə, 2024-cü ildə Şuşa şəhəri islam paytaxtı kimi təqdim olunacaq. Bununla da Şuşa şəhərinin daha da tanıdılmasına zəmin yaranacağını diqqətə çatdırıb.

**Təklifi dəyərləndirən "Güney Azərbaycan Demokratik Türk Birliyi"nin rəhbəri Əjdər Tağızadə "Şərq"ə bildirib ki, İran orada Azərbaycanın mədəniyyət mərkəzinin açılmasına razı olmayacaq:** "Hələ indiyə kimi orada belə mədəni mərkəzlərin yaradılmasına izin verməyiblər, əngəl olublar. Onların dardüşüncəliyi bir yana, Azərbaycan məsələsinə də çox həssas yanaşırlar. Çünki İranda ölkəmizin bir mədəni mərkəzi açılarsa, əlbəttə ki, orada yaşayan Azərbaycan türkləri addımı dəstəkləyib, alqışlayarlar".

**Sücayət Mehti**



# Uzunluğu 32 km-dir

## Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun asfaltlanmasına başlanılıb

**İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində əsas prioritetlərdən biri yol infrastrukturunun bərpasıdır. Bu çərçivədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan yol infrastrukturu layihələrindən biri də Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisidir. Artıq yolun asfaltlanmasına başlanılıb.**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində bütün avtomobil yolları iri yaşayış məntəqələrindən kənar keçməklə layihələndirilir. Bu isə həmin yaşayış məntəqələrində yaşayacaq əhalinin, həm də yoldan istifadə edəcək vətəndaşların rahatlığı baxımından önəmlidir.

Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun inşası da məhz bunlar nəzərə alınaraq aparılır. Yeni avtomobil yolunun uzunluğu 32 km təşkil edir. Yoxuşlarda 3, digər hissələrdə 2 hərəkət zolaqlı olacaq yolun layihə üzrə hərəkət hissəsinin eni 7-10.5 metr, torpaq yatağının eni 12-15 metr, çiyin hissələrin eni isə 2x2.5 (5 m) metr təşkil edir.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Layihəyə uyğun olaraq torpaq yatağının tikintisi, süni qurğuların inşası işləri görülür. "İnşaat Norma və Standartları"na uyğun olaraq yararsız qrunt, həmçinin torpaq yatağının genişləndirilməsi üçün bitki qatının qazılaraq çıxarılması işləri görülür, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması, yeni torpaq yatağının və yol əsasının inşası həyata keçirilir. Yol əsası hazır olan hissədə yeni asfalt-beton örtüyünün döşənməsinə də start verilib. Çətin relyefə malik olan ərazidən keçən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə dairəvi borular və müxtəlif süni qurğuların tikintisi də icra olunur. Bu çərçivədə yolun 22-ci km-də inşa edilən və uzunluğu 149.5 metr, eni 13.5 metr olan 4 aşırımlı körpüdə hazırda tikinti işləri son mərhələ üzrə icra olunur.

Yeni avtomobil yolunun inşası tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla AAYDA-nın rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

Tikinti işlərinin cari il ərzində yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

*BÜTÜN YOLLAR QARABAĞA APARIR...*



# AZAL iyulda Bakıdan Tbilisiyə uçuşlara başlayacaq

**"Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti marşrut şəbəkəsini inkişaf etdirməyə davam edərək, iyul ayında Bakıdan Gürcüstanın paytaxtı Tbilisi şəhərinə uçuşlar yerinə yetirməyə başlayacaq.**

AZAL-dan verilən məlumata görə, Bakı-Tbilisi-Bakı marşrutu üzrə reyslər aviaşirkət tərəfindən həftədə üç dəfə - bazar ertəsi, çərşənbə axşamı və cümə günləri həyata keçiriləcək. İlk reys 1 iyul tarixində baş tutacaq.

AZAL-ın bu və digər reyslərinə aviabiletləri aviaşirkətin rəsmi www.azal.az saytında və aviadaşıyıcının akkreditə olunmuş agentliklərində rəsmiləşdirmək mümkündür.

Qeyd etmək lazımdır ki, Bakı-Tbilisi-Bakı istiqamətində eyni zamanda "Buta Airways" aşağıbüdcəli aviaşirkəti hər gün iki dəfə uçuşlar həyata keçirir.

Qeyd olunan reyslərə müəyyən edilmiş daşıma şərtlərinə uyğun olan və mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuşuna icazə verilən sərnişinlər qəbul ediləcək.

Gürcüstana səfər etməyi planlaşdıran bütün sərnişinlərə uçuşdan əvvəl ölkəyə daxil olma qaydaları ilə tanış olmaq tövsiyə olunur:
https://www.azal.az/ru/information/covid-georgia.

Azərbaycana giriş qaydaları haqqında məlumatla buradan tanış olmaq mümkündür:
https://www.azal.az/ru/information/covid-azerbaijan.

# "Quruculuq işləri 44 günlük müharibənin davamıdır"

## Büdcəni artırmaqla dövlət başçısı "Qarabağa qayıdışı" sürətləndirir

**"Keçmiş sovet məkanında Rusiya-Ukrayna savaşı şəraitində ilin ortasında büdcə xərclərinin kəskin artımına gedən dövlət yoxdur". Bu sözləri Milli Məclisin dünənki iclasında millət vəkili Zahid Oruc deyib. Deputat bildirib ki, indi dünyada "taxıl və silah" termini yanaşı işlənir: "Müharibə hazırkı templə davam etsə, nəinki silah və hərbi texnika, eləcə də qeyri-ərzaq xarakterli istenilən məhsulu verib,**

öz xalqının çörəyə ehtiyacını ödəməyə çalışan dövlətləri görəcəyik. Hətta İsveç, Finlandiya kimi neytral ölkələr tarixi seçim qarşısındadır. Ona görə də dövlət başçısının qərarının təkcə iqtisadi deyil, daha çox hərbi-siyasi və təhlükəsizlik xarakteri daşıdığına şübhə yoxdur. Son 30 ildə ölkəmizin bütün həyatından qopmuş Qarabağ torpaqlarını təkcə ordu və silahla deyil, həm də inşaat və quruculuq, infrastruktur və nəqliyyat tədbirləri ilə yenidən xalqa qazandırmaq gərəkdir. Büdcəyə edilən yeni artım Zəngəzur yolunun açılması üçün Prezident planının gücləndirilməsinə xidmət edir. Biz indi nəinki sərhədlərin açılması, eləcə də 42 km-lik Qərbi Zəngəzur yolunu da tikməyə hazır olmalıyıq. Subyektiv olaraq irəli sürdüyümüz bu mövqe dövlət başçısının hökumətə, iş adamlarına, vətəndaşlara və xarici kompaniyalara çağırışından irəli gəlir. Əgər hər hansı əcnəbi şirkət gəlib Şərqi Zəngəzurda çalışırsa, onda milli şirkətlərimiz də gedib Qərbi Zəngəzur yolunu qısa müddətdə tikə, tarixi yolu bərpa edə bilərlər. Beləliklə, 2.4 milyard manatlıq ayırmaların yönəldiyi sahələr Ermənistanın sülh istəməyən dairələrinə təzyiqi gücləndirəcək. Çünki quruculuq tədbirləri 44 günlük müharibənin davamıdır. Beləliklə, büdcəni artırmaqla dövlət başçısı "Qarabağa qayıdışı" sürətləndirir. Son 20 ay ərzində işğaldan



***"Belə şəraitdə Prezidentə çevik, şəffaf və məsuliyyətli hökumət gərəkdir ki, xalqla fasiləsiz işləsin"***

azad edilmiş torpaqlara 23 səfərin reallaşması Qarabağın quruculuğunun Prezidentin hədəfində 1-ci yerdə olduğunu göstərir. Büdcə qərarı təkcə məcburi köçkünlərin doğma yurdlarına qayıdışı deyil, eləcə də dünyadakı iqtisadi-siyasi və ərzaq sanksiyalarının gücləndiyi bir dövrdə ölkəmizdə sosial tarazlığı qoruyub saxlamaq və münbit yeni əkin-biçin sahələri yaratmaq məqsədi daşıyır".

**Z.Oruc vurğulayıb ki, son bir neçə ayda ölkəmizə qaz ixracı xahişi ilə edilən səfərlərin və müraciətlərin sayı kəskin artıb:** "Göründüyü kimi, son bir əsrdə qlobal savaşlar zamanı ilk dəfədir ki, biz ayaqlar altında qalmırıq. Yanlış siyasət hesabına xarici iqtisadi və istismar yaşamırıq. Torpaq, insan və sərvət itkisi vermirik. Əksinə, siyasi əhəmiyyətimiz artır və bir vaxtlar Qafqazlarda savaş çıxaranlardan ovaxtkı haqqımızı geri alırıq. Bizim hazırkı neft-qaz gəlirlərinin artması yalnız buruqların və xarici mübarizələrin hesabına deyil, prezidentin diplomatik-siyasi məharətinin faydalarıdır. Ona görə də əldə olunan milyardları yüz il əvvəl Azərbaycandan qoparılan sərvətlərin əvəzi, tarixi ədalətin bərpası adlandırmaq olar. Ölkəmiz İran, Rusiya, Gürcüstan, Ermənistandan fərqli olaraq, regionda sanksiyalara və izolyasiyaya məruz qalmayan yeganə ölkədir. Belə şəraitdə Prezidentə çevik, şəffaf və məsuliyyətli hökumət gərəkdir ki, xalqla fasiləsiz işləsin. Millətin Qələbəsini qoruмаqla daimi birliyi saxlasın, rəhbərin qərarlarını dəqiq və ünvanlı yerinə yetirsin! Büdcə gəlir və xərclərinin artması həm də hökumətin xalqa çətiη və ərzaq böhranının baş verməyəcəyinə dair zəmanəti kimi qəbul edilə bilər".

**İsmayıl**

# Füzulidə beynəlxalq minatəmizləmə şirkətinin əməkdaşını ilan sancıb

## O, xəstəxanaya göndərilib, vəziyyəti qənaətbəxşdir



**İyunun 22-də Minatəmizləmə Agentliyi ilə (ANAMA) əməkdaşlıq edən RPS Energy Ltd. şirkətinin nümayəndəsini Füzuli rayonunda xidməti vəzifəsini yerinə yetirərkən ilan sancıb.**

Bu barədə ANAMA-nın Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, nəticədə nümayəndəyə ANAMA-nın tibbi yardım heyəti tərəfindən ilkin yardımla yanaşı, ilan sancması zamanı zəruri olan bütün müvafiq səylər göstərilib: "Həkimlərin peşəkarlığı sayəsində zərərçəkmişin vəziyyəti operativ şəkildə təhlil olunub və ilk yardım dəstində mövcud olan ilan əleyhinə zərdab vurulub. Zəruri müayinələrdən keçirilməsi üçün nümayəndə xəstəxanaya göndərilib. Vəziyyəti qənaətbəxşdir".

*Qeyd edək ki, RPS Energy Ltd. şirkəti Böyük Britaniyaya məxsusdur.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# Şəhid övladları göz bəbəyimizdir

## Dövlətin dəstəyi ilə onlar sanator-kurort və bərpa-müalicə xidmətlərindən pulsuz faydalanırlar



**Uşaqlar xalqın ən qiymətli sərvəti, cəmiyyətin gələcəyidir. Bu gələcəyin möhkəm təməllər üzərində qurulması uşaqların sağlam və cəmiyyətə faydalı vətəndaş kimi böyüdülməsindən əhəmiyyətli dərəcədə asılıdır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".**

Uşaqların fiziki və mənəvi inkişafı üçün də əsas şərt onların sağlamlığıdır. Uşaqların keçirdikləri müxtəlif xəstəliklərin müalicəsində reabilitasiya, tibbi bərpa prosedurları mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqlarla bağlı nəzərdə tutulan mütərəqqi tədbirlər prioritet sahələrdən biridir. Respublika bu kateqoriyadan olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər xüsusi önəm kəsb edir. Onların bərpa müalicəsinin təşkili, müxtəlif reabilitasiya vasitələri ilə təminatı bu sosial kateqoriyanın nümayəndələrinin cəmiyyətə daha sağlam inteqrasiya olunmasına imkan yaradır.

Səhiyyə Nazirliyi mütəmadi olaraq şəhid övladlarına və onların analarına sanator-kurort və bərpa-müalicə xidmətlərini təşkil etməsi cəmiyyətdə təqdirəlayiq hal kimi dəyərləndirilir. Uşaqların mənəvi-fiziki inkişafı ilə yanaşı şəhid ailələrinə, qazilərə diqqət və qayğı da dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir, axı!

Müzəffər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində ölkənin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbçilərin ailə üzvlərinə, qazilərə və müharibə iştirakçılarının sosial müdafiəsi istiqamətində həyata keçirilən işlər davam etdirilir. Belə ki, Azərbaycan hökuməti şəhid ailələri, müharibə əlilləri və bu kateqoriyadan olan digər şəxslərin sosial durumunun yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər həyata keçirir.

Bu tədbirlər planı çərçivəsində təşkil edilən xidmətlərdən biri də Səhiyyə Nazirliyi tərəfindən mütəmadi olaraq şəhid övladlarının sanator-kurort və bərpa-müalicə mərkəzlərinə aparılmasıdır.

Qeyd edək ki, növbəti belə bir aksiya Buzovna qəsəbəsində yerləşən Respublika Uşaq Sanatoriyasında həyata keçirilir.

On günlük sanator-kurort və bərpa-müalicə xidmətlərindən 28 nəfər (18 uşaq və 10 ana) yararlanır.

Respublika Uşaq Sanatoriyasında onlar həkim müayinələrindən keçir və fizioterapiya müalicələri, maqnit terapiyası, elektrostimulyasiya, elektrofarez, fonoforez, müalicəvi bədən tərbiyəsi, inqalyasiya, massaj, naftalan müalicələrini qəbul edirlər.

Eyni zamanda, istirahətlərini səmərəli və effektiv keçirmələri üçün müxtəlif növ əyləncə tədbirləri və ekskursiyalar təşkil olunur.

Respublika Uşaq Sanatoriyasında şəhid ailələri üçün sanator-kurort və bərpa-müalicə xidmətləri təşkil olunur.

Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir. Azərbaycanın qəhrəman oğulları dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində tariximizin ən şərəfli səhifələrindən birini yazdılar. Qələbəni şəhidlərimizin qanı, eyni zamanda, əsgər və qazilərimizin döyüşlərdə böyük fədakarlığı hesabına qazandıq. Şəhid ailələrinin övladlarına qayğı və xidmət göstərmək hər zaman mənəvi borcumuzdur.

**Sosioloq Lalə Mehralı da "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanda şəhid övladlarına diqqət və qayğı hər zaman dövlətimiz üçün prioritet istiqamətlərdən olub:** "Ölkə başçısı da daim öz çıxışlarında bu məsələyə xüsusi toxunur ki, qələbəni şəhidlərimizin qanı, eyni zamanda, əsgər və qazilərimizin döyüşlərdə böyük fədakarlığı hesabına qazandıq. Bu səbəbdən də bütün dövlət qurumlarına şəhid övladlarına və xanımlarına diqqət və qayğı göstərmək tapşırılıb. Onların evlə təmin olunması, təhsil haqqından azad olunması istiqamətində dövlət nümunəvi addımlar atıb. Bu addımların davamı olaraq şəhid uşaqlarının sanator-kurort və bərpa-müalicə xidmətlərindən pulsuz faydalanması alqışalanmalıdır. Çünki bu mərkəzlərdəki qiymətlərin şəhid uşaqlarının öz hesablarına bu xidmətlərdən yararlana bilməyəcəkləri qədər baha olduğunu hamımız bilirik. Çox yaxşı olar ki, bu cür aksiyalar qazi ailələri, xüsusən də onların övladları üçün də təşkil edilsin".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# İranın Borçalıda apardığı ideoloji "iş" nəticəsini verir

## Turab Rzayev: "Gürcüstan azərbaycanlıları ilə bağlı ideoloji sahədə böyük bir boşluq yaranıb"



**"Uzun müddətdir, Gürcüstan müsəlmanları Azərbaycan dövlətinin nəzərindən kənarda qalıb. Həmin əhali ilə ideoloji işlər aparılmayıb, lazımi münasibətlər qorunub saxlanılmayıb və dini-ictimai məsələlərlə bağlı əlaqələr qurulmayıb. Nəticədə boşluq yaranıb.**

Bu boşluğu daha çox İranın doldurduğunun şahidi oluruq. Bəzi hallarda isə başqa dövlətlər tərəfindən dəstəklənən dini təriqətlər tərəfindən bu boşluq əvəzlənir".

**Bu barədə əslən Borçalı türkü olan siyasi şərhçi Turab Rzayev "Şərq"ə Borçalıda azərbaycanlılar tərəfindən keçirilən aksiyanı şərh edərkən deyib. O bildirib ki, İranın uzun müddətdir, apardığı ideoloji "iş" öz nəticəsini verir:** "İran vaxtı gəldikdə 30 il ərzində qurduğu, maddi, mənəvi və digər cəhətlərdən dəstəklədiyi azərbaycanlılardan istifadə edəcək. Bu hazırda baş verir və bütün hallarda Azərbaycan Respublikasının yanında olmalı olan şəxslər İranın siyasi ajandasına uyğun hərəkət edir. Aydın məsələdir ki, burada İran tərəfindən uzun illər yaradılan ideoloji əlaqələrin və göstərilən dəstəklərin xüsusi rolu var. Eyni zamanda, burada Azərbaycan dövlətinin yaratdığı boşluqlar var. Azərbaycan elə boşluq yaratmalı deyildi ki, başqa dövlətlər bundan istifadə etsin".

**Analitikin sözlərinə görə, burada digər əsas məqam Gürcüstan hakimiyyətinin buna şərait yaratmasıdır:**

"Xüsusilə İrana yaxın dini bayramlarda gürcü kilsə və dövlətinin də xüsusi dəstək verdiyinin şahidi oluruq. Hətta bir çox kəndlərdə bu qəsdən yayılır. Məsələn, hər kənddə 10-15 radikal şiənin və 10-15 radikal sələfi və təkfirçi şəxsin formalaşmasına şərait yardırlar ki, nəticədə yerli icmada bölünmə yaşansın. Çünki radikal şiələr və radikal sələfilər bir-birinə nifrət edirlər, onların birləşməsi mümkün deyil. Digər tərəfdən də "Parçala və hökmranlıq et" prinsipinə uyğun olaraq həmin əraziləri idarə etmək çox asan olur.

> *"Burada digər əsas məqam Gürcüstan hakimiyyətinin buna şərait yaratmasıdır"*

Aydın məsələdir ki, Azərbaycan dövləti Qafqaz Müsəlmanlar İdarəsi kimi amorf, heç bir funksiyası və real fəaliyyəti olmayan qurumla Gürcüstana təzyiq göstərə bilmir. Radikal sünni, şiə qüvvələri və ya İran, Səudiyyə Ərəbistan kimi ölkələrin təsirində olan dini qruplara nəzarət edə bilmir".

**Çimnaz Şahlar**



# Mərkəzi Bankın statistikası şəffaf deyil

## Əslində problemli kreditlərin çoxunu bank ümidsiz olduğundan silib

**Bu il iyunun 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 673,7 milyon manat təşkil edib. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, ölkədə problemli kreditlər ilin əvvəlinə nisbətən 6,4 faiz, son 1 ildə isə 25,7 faiz azalıb.**

Problemli kreditlərin azalma səbəbini "Şərq"ə şərh edən hüquqşünas, bank üzrə mütəxəssis Əkrəm Həsənovun sözlərinə görə, bu statistika tam deyil: "Əvvəla, Mərkəzi Bank sadəcə faizləri göstərir. Mərkəzi Bank problemli kreditlərin azalması ilə bağlı rəqəm açıqlayanda heç vaxt konkret səbəbləri göstərmir. Son 1 ildə 25,7 faiz azalma olubsa bu faiz nəyin hesabına dəyişib axı? Problemli krediti olan vətəndaşlar banklara olan borclarını ödəyiblər, yoxsa banklar həmin kreditlərin qaytarılmayacağına əmin olub, borcları silmək məcburiyyətində qalıblar. Təsəvvür edin ki, Səhiyyə Nazirliyi hansısa bir xəstəliklə bağlı ilin əvvəlində statistika yayır ki, virusa yoluxan min nəfər olub. İlin sonunda isə 500 nəfər olub. Amma demirik ki, o 500 nəfər ölüb, yoxsa sağalıb? Eyni məsələ də problemli kreditlər məsələsində var. Bu kreditlər qaytarıldı, yoxsa silindi? Mənə elə gəlir ki, problemli kreditlərin çoxunu bank ümidsiz olduğundan silib. Qısası, problemli kreditlər azalmayıb. Sadəcə, onların əhəmiyyətli hissəsi artıq hesabatlara daxil edilmir".

Hüquqşünasın sözlərinə görə, problemli kreditlər də iki qrupa bölünür. Biri var hansısa sadə vətəndaş, yaxud sahibkar bankdan 10 min dollardan çox kredit götürüb qaytara bilməyiblər. Bu halda bank həmin şəxsi məhkəməyə verir və əsaslı səbəblər olduqda məhkəmə borcun silinməsi barədə qərar verir. Amma ikinci qrupa daxil olan probemli kreditlər şübhəli kreditlərdir. Bunları isə bank sahiblərinin faktiki özlərinə, yaxınlarına verdikləri kreditlərdir. Və yaxud da korrupsiya, "şapka" ilə verilən kreditlərdir. Bu gün problemli kreditlərin mütləq əksəriyyəti, azı 60 faizi məhz belə kreditlərdir. Bu problemli kreditlərə qarşı ciddi addım atılmayıb. Problemli kreditlərin yaranmasında nəzarət edən qurum kimi Mərkəzi Bankın məsuliyyət daşıdığını düşünürəm. Deyib ki, Mərkəzi Bank və hüquq-mühafizə orqanlarının səylərinin birləşdirilməsi nəticəsində şübhəli problemli kreditlərin əhəmiyyətli dərəcədə azalmasına nail olmaq mümkündür".

**Şəymən**

# Mal əti ucuzlaşmayacaq



## Yalnız Qarabağda heyvandarlıq inkişaf etdirilərsə, qiymətlərin ucuzlaşması mümkün olar

**Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən "Kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması Qaydası"nda dəyişikliklər edilib.**

Nazirlər Kabinetinin məlumatına görə, dəyişikliyə əsasən heyvanların identikləşdirilməsi fəaliyyəti sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi ilə yanaşı vahid sənədləşmənin tətbiq edilməsi, heyvan sahiblərinin identikləşdirilmə üçün bir heyvan üçün tələb olunan xərclərinin azaldılması təmin edilib. Belə ki, dəyişikliyə əsasən identikləşdirilmənin nəticəsi olaraq yalnız şəhadətnamə veriləcək və baytarlıq pasportunun alınması tələb olunmayacaq. Əvvəlki qaydalara əsasən hər heyvan və ya heyvan qrupu identikləşdirilməli və identikləşdirilmə nəticəsində heyvan sahibinə "baytarlıq pasportu" və "identikləşdirilmə haqqında şəhadətnamə" verilməli idi. Baytarlıq pasportunun alınmasına görə isə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda 20 manat dövlət rüsumu nəzərdə tutulurdu. Dəyişiklik nəticəsində isə hər bir heyvana görə baytarlıq pasportunun alınması zərurəti aradan qalxır artıq və nəticə etibarilə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş 20 manat məbləğində dövlət rüsumunun ödənilməsi də tələb olunmayacaq. Bu isə öz növbəsində heyvan ətinə çəkilən xərcin azalmasına səbəb olacaq.

**Məlum dəyişiklik heyvan ətinin qiymətinin ucuzlaşmasına səbəb ola bilərmi? "Şərq"ə cavabında iqtisadçı Natiq Cəfərli qeyd etdi ki, bu vaxta qədər baytarlıq pasportu üçün 20 manat, sertifikat üçün də əlavə 5 manat tələb olunurdu. Artıq bu tələblər ləğv edilir. Yəni heyvan sahibləri pasport və sertifikatlaşdırma üçün əlavə xərcdən azad edilir:**

- Lakin bu xərclər kiçik rəqəmlər olduğundan heyvan ətinin qiymətinin ucuzlaşmasına əsaslı təsir göstərməsi çətindir. Xırda buynuzlu heyvanların qiymətinə bir qədər təsir göstərə bilər. Çünki qoyun, quzunun çəkisi iri buynuzlu heyvanlara nisbətən azdır. Bu da uzaqbaşı 80 qəpik-1 manat civarında olacaq. Amma mal ətinin ucuzlaşmasını gözləmək yersizdir. 25 manat əlavə xərcin aradan qalxmasının 150-300 kiloqramlıq dananın maya dəyərində o qədər də çəkisi yoxdur. Bu, mal ətinin qiymətinə təsir edə bilməz. Ona görə də dana ətinin qiymətinin ucuzlaşacağını düşünmürəm.

**N.Cəfərli bildirdi ki, ətin, diri heyvanın qiymətində ucuzlaşma yalnız bolluq olarsa mümkündür, bunun öz şərtləri var:**

- Azərbaycan hələ də Gürcüstandan malqara ixrac edir. Hazırda Azərbaycan malqaraya olan ehtiyacı ödəyə bilmir. İşğaldan azad edilmiş ərazilərdə yaxın gələcəkdə heyvandarlıq inkişaf edərsə, qiymətlərdə ucuzlaşma mümkün olar. Belə məlumatlar var ki, Kəlbəcər, Qubadlı, Laçında heyvandarlığın inkişafına önəm veriləcək. Belə olarsa, qiymətlərdə ucuzlaşma da gözlənilən olacaq. Müəyyən qədər yay fəslində yem problemi o qədər də hiss edilmədiyindən ətin qiyməti, əslində ucuzlaşmalıdır. Amma qış aylarında yem bazası problemi özünü qabarıq göstərdiyi üçün qiymət ucuzlaşmasını gözləmək də absurd görünür.

**Məlahət Rzayeva**



qədər yayılması mənə qəribə gəlir. Mən burada insanların dini inancını müzakirə etmirəm. Bir müsəlman olaraq dinin, gənclərimizin ibadətə meyl etməsinin əleyhinə deyiləm. Hər kəsin də dini etiqadına hörmətlə yanaşıram.

Amma Borçalı cəmiyyətinin birdən-birə dindarlaşması, fars rejiminə meyl etməsi təbii proses deyil. Burada hansısa maraqlı qüvvələrin "əli" var. Onlar din pərdəsi altında Gürcüstan azərbaycanlılarının beyinlərini yuyub onlardan "fanat ordusu" dir. Amma bu, orada yaşayan millətlərin dövlətin verdiyi imkanlardan istifadə edib dini fanatizmə qoşulmasına rəvac vermir. Fanatikin psixologiyası başqa olur. Fanatizm virusuna qarşı yeganə vaksin isə təhsil və elmi təfəkkürdür".

**Gürcüstanda soydaşlarımız yaşayan ərazilərin təbliğat yuvasına çevrilməsi ilə bağlı "Şərq"ə danışan ilahiyyatçı, siyasi şərhçi Tural İrfan deyib ki, Borçalıda İranın din adı altında siyasi-məzhəbçi təbliğatı artıq son həddə çatıb. Ekspert bildirib ki, harada şiə əqidəsinə etiqad edən müsəlman varsa, İran hökmən ora barmaq edir:** "Həmin müsəlmanları təsir altına salır, din adı altında öz siyasi maraqlarının alətinə çevirir. İran Yəməndən İraqa, Suriyaya kimi məzhəbçilik təəssübü ilə qanlar tökür. Azərbaycanda da güclü təsir rıçaqları var. Qafqaz Müsəlmanları İdarəsi demək olar ki, tamamilə İranın, Qumun filialına çevrilib. Borçalıda baş verənlər isə sərin-sərin, heç kəsin sezməyəcəyi şəkildə din pərdəsi altında edilir. Məqsəd Azərbaycan xalqının birliyini pozmaqdır".

# Türkiyə və Azərbaycan hərəkətə keçməlidir

## "Borçalıda İranın din adı altında siyasi-məzhəbçi təbliğatı artıq son həddə çatıb"

**Pediatr Vaqif Qarayev feysbuk statusunda Gürcüstanda soydaşlarımızın yaşadıqları bölgələrlə bağlı öz narahatlığını ifadə edib. Borçalı türklərinin İran mollalarının dini təbliğatına məruz qaldığını, insanların beyinlərinin yuyulduğunu deyən əslən Borçalıdan olan pediatr sözügedən məsələlərlə bağlı həyəcan təbili çalıb:**

"Gürcüstanın Avropa İttifaqına qəbulu ilə bağlı məsələ bir qədər qəlizləşib, yəqin tezliklə həllini tapar. Deməli, iki gün qabaq az qala bütün Gürcüstan meydana çıxaraq "Biz Avropa istəyirik" deyə hayqırdı. Həmişə haqsızlıqdan, hüquqsuzluqdan gileylənən soydaşlarımız neylədi? - Bir qrup gənc "Biz İran-fars rejimi istəyirik" plakatları ilə küçəyə çıxıb. Heç kim inciməsin, bu beyinləri kim yuyub, necə yuyub?

**Sosial şəbəkə vasitəsilə qaldırdığı problemlərlə bağlı ətraflı şərh almaq üçün V.Qarayevlə əlaqə saxlayıb, dini fanatizmin Gürcüstan azərbaycanlıları arasında necə yayıldığının səbəblərindən danışdıq. Doktorun sözlərinə görə, dini fanatizmin Borçalıya ayaq açması onu ən çox narahat edən məsələlərdən biridir:** "Bilirsiz ki, bizim zonanın (Qazax-Borçalı) adamları içkiyə meyilli xalqdır. Uşaqlıq və cavanlığım illərim orda keçib və çox yaxşı yadımdadır ki, insanlar az qala çaxır çəlləyinin içinə girirdilər. Ona görə də belə bir toplumun məskunlaşdığı ərazidə mövhumatın bu yaradırlar. Az savadlı, əsasən də orta təhsili belə olmayan gənc azərbaycanlılar dini fanatizmə meyillidirlər. Dini fanatizmin isə nə qədər təhlükəli bir hal olduğunu hamımız yaxşı bilirik.

Bütün Gürcüstan vətəndaşlarının istəyi Avropalaşmaqdır. 3-4 gün əvvəl də bu məsələ ilə bağlı möhtəşəm bir mitinq keçirilib. Gürcülərlə yanaşı orada məskunlaşan əksər soydaşlarımız da "Biz Avropa istəyirik" deyə meydanı inlədiblər. Bunun fonunda bir qrup azərbaycanlı gəncin "biz İran istəyirik" deyə qışqırması artıq şübhə doğurmaya bilməz.

Onu da deyim ki, Gürcüstanda həm milli, həm də dini ideologiya kifayət qədər oturuşub. Hər bir gürcü vətəndaşının kilsəyə xüsusi münasibət bəsləyir. Eyni zamanda katalikos da insanları öz doğması kimi müdafiə edir".

V.Qarayevin sözlərinə görə, daha çox Qumdan gedən gəncləri pulla şirnikləndirib öz tərəflərinə çəkirlər. Təsadüfi deyil ki, Gürcüstanda aşkar olunan ilk "Covid" xəstəsi də Qumdan qayıdan azərbaycanlı idi. Yaxşı ki, gürcülər bunu çox qabartmadılar: "Nə var axı bu Qumda? Gənclərimizin qumar oynayıb, narkotik maddə aludəçisinə çevrilməyindənsə, dini ibadətlə məşğul olub, məsciddə ibadət etməsinə müsbət yanaşıram. Bir şərtlə ki, bu ibadət cahilliyə sürüklənməsin. Avropaya inteqrasiya edən Gürcüstan dini tolerantlığa əməl etmək məcburiyyətində-

T.İrfan vurğulayıb ki, İmam Hüseynin yolu ilə İranın yaydığı "din" arasında ağla qara qədər fərq var:

"İmamın yolu birlik, sülh, ədalət, dürüstlük yoludur. Lakin bunlar nifaq, ayrıseçkilik, kin, radikalizm yayırlar. Hesab edirəm ki, Türkiyə və Azərbaycan Borçalıda yaşayan soydaşlarımızın vəziyyəti ilə, əsasən də dini zəmində baş verən olaylarla bağlı hərəkətə keçməlidir. Gürcüstan hökuməti ilə bu mövzuda müzakirələr aparılmalıdır. Əks halda qısa müddətdə Borçalıda yaşayan soydaşlarımız arasında birliyin pozulması qaçılmazdır. Türkiyə ilə birliyimizin onurğa sütununa İran məzhəbçilik xəncəri soxaraq nifaq salır. İslam dininə görə, bütün müsəlmanlar qardaşdır və ayrıseçkilik qadağandır. İran isə öz siyasi maraqları naminə islam dinini istənilən coğrafiyada alət kimi, qalxan kimi istifadə edir. Buna aldanmamaq lazımdır".

**Şəymən**

# Topçu qardaşım



**Fədai QARAXANLI**

**Fədai Qaraxanlı 1967-ci ildə Tovuz rayonunun Qaraxanlı kəndində dünyaya göz açıb. BDU-nun jurnalistika fakültəsini bitirib. Bir çox mətbu orqanlarda çalışıb. Vətənsevər bir insan kimi Birinci Qarabağ savaşında da iştirak edib. O, təkcə publisistik yazıları ilə deyil, həm də şeirləri ilə tanınır. Bu gün Fədai bəy növbəti dəfə şeirləri ilə oxucuların görüşünə gəlib.**

### O, təyinatlı

*(Bu şeir məğrur generalımız Hikmət Mirzəyev və Tehran Mənsimov kimilər başda olmaqla cəmi xüsusi təyinatlı döyüşçülərin şərəfinə həsr olunub)*

Bir gücə möhtacdı Vətənim illər,
Qaytardı gücünü o, təyinatlı.
Yurdumuz tapdandı gör neçə illər,
Qurtardı torpağı o, təyinatlı.

Yurdumun yorulmaz vuran qoludu,
Varlığı silahdı, sağlı, soludu.
Vətən sevdalıdı, qəlbi doludu,
Vücudu zəhimli o, təyinatlı.

Düşmənə nifrəti gözündən saçır,
Adicə adından bir ordu qaçır.
Keçilməz cəbhədə cığırlar açır,
Beş-altı nəfərlə o, təyinatlı.

Bəzən duman olur gecələr kimi,
Hərdən daşa dönür qayalar kimi.
Hərdən də yamyaşıl ağaclar kimi,
Görünməz gözlərə o, təyinatlı.

Harda uğur varsa, nəfəsi orda,
Bütün cəbhələrdə, soyuqda, qarda.
Yaralı dostunu qoymayır darda,
Çiynində daşıyır o, təyinatlı.

Bir tarix yazdınız Şuşada sizlər,
Qayaya həkk oldu o qanlı izlər.
İndi bütün dünya sizləri izlər,
O qürur yerimiz o, təyinatlı.

### Topçu qardaşım

Tanrı qüvvət versin sənin qoluna,
Gözünə, zəkana, topçu qardaşım.
Unutma Xocalı, Kərkicahanı,
Yağdır mərmiləri, topçu qardaşım.

Atəşkəs adına uyma bir anda,
Düşmən kələyidir san həmin anda.
Mərhəmət gözləmə bu çətin anda,
Od ələ göylərdən, topçu qardaşım.

Barıtın qoxusu, hisi canında,
Dığaya nifrətin coşsun qanında.
Külünü göylərə sovur anında,
Qoyma nəfəs dərə, topçu qardaşım.

Sahibsiz qalmışdı evlər, obalar,
Soyumuş, paslanmış isti sobalar.
Ümidi kəsilmiş xəstə qocalar,
Dayanma, vur deyir, topçu qardaşım.

Həsrətlə boylanır dağlar, dərələr,
Çaylarda saralmış yaşıl tərələr.
Bizləri gözləyir geniş bərələr,
Vur, topçu qardaşım, topçu qardaşım.

### Yanan oğullar

Cavan canlarını qurban etdilər,
Vətənin eşqiylə yanan oğullar.
Övladı Yurdunda yaşasın deyə,
Döyüşə yüyürdü yanan oğullar.

Keçilməz qayadan, dağlardan aşdı,
Ər kimi döyüşdü, səngərlər aşdı.
Qəfil mərmilərlə oda bulaşdı,
Alovlar içində yanan oğullar.

Düşmənə dar etdi bərəni, bəndi,
Dığanın qurduğu məkirli fəndi.
Qurtardı yurdları, yüzlərcə kəndi,
Tanklarda sıxışıb yanan oğullar.

Gözündə heç oldu o şirin canı,
Vətənin yolunda töküldü qanı.
Ey gələn nəsillər, daima tanı,
Sizləri qorudu yanan oğullar.

Üstündə gəzdiyin bu şanlı torpaq,
Səndən üz çevirər, sən olsan qorxaq.
Göyərməz ağacda bir yaşıl yarpaq,
Olmasa Vətəndə yanan oğullar.

# Sabirabadda ata və yeniyetmə oğlu güllələnib

## Hər iki yaralı ayaq sümüyün zədələnməsi diaqnozu ilə xəstəxanaya yerləşdirilib






**Sabirabad rayonunda ata və yeniyetmə oğlu güllələnib.**

APA-nın Mil-Muğan bürosu xəbər verir ki, hadisə rayonun Minbaşı ərazi vahidliyinin Qarağac kəndində heyvan obasında baş verib.

Minbaşı kənd sakini, 1981-ci il təvəllüdlü Hüseynov Fazil Kamil oğlu və onun yeniyetmə oğlu 2005-ci il təvəllüdlü Hüseynov İbrahim Fazil oğlu ayaqlarından ov tüfəngi ilə güllələnib.

Özlərinin bildirdiyinə görə, onlar kəndin çöllük ərazisində olarkən kənd sakini, 18 yaşlı Sahib adlı qonşuları maşınla ora gələrək əlindəki qoşalülə tüfəngi yerə atıb, bu zaman tüfəngdən avtomatik açılan atəş ata və oğulu ayaqlarından yaralayıb. Hər iki yaralı ayaq sümüyün zədələnməsi diaqnozu ilə əvvəlcə Şirvan şəhər xəstəxanasına, daha sonra isə Bakıya - Respublika Klinik xəstəxanasına yola salınıb. Faktla bağlı Sabirabad polis şöbəsində araşdırma aparılır.

# Gəncədə məktəb direktoru intihara cəhd edib

## Onun vəziyyətinin kafi olduğu bildirilir



**Gəncədə intihara cəhd hadisəsi baş verib.**

APA-nın yerli bürosu xəbər verir ki, Gəncə şəhər İ. Qayıbov adına 1 nömrəli tam orta məktəbin direktoru Mətanət Qarayeva dərman içərək özünü zəhərləyib.

Onun hansı səbəbdən intihara cəhd etməsinin səbəbləri məlum deyil.

Məktəb direktoru Gəncədə yerləşən xəstəxanalardan birində müalicə alır.

Onun vəziyyətinin kafi olduğu bildirilir.

# Sovet vaxtı belə dələduzlar haqqında eşitmirdik

## İndi hər kəs bir-birini aldatmaqda, kələk gəlməkdə məharətlidir

**Son vaxtlar hüquqi və fiziki şəxslərə fərdi və korporativ qaydada əməkdaşlıq, işə düzəltmə, investisiya yatırma imkanları və s. ilə bağlı müxtəlif təkliflər edilir. Xüsusilə, işə düzəltmək adı ilə dələduzluq halları artıb. Onlar yüksək vəzifəyə işə düzəlmək vədi verərək vətəndaşlardan yüksək məbləğdə pul tələb edirlər.**

"Qalstuklu moşenniklər" camaatın pulunu alıb, sonra aradan çıxırlar. "Sizinlə əlaqə saxlayacağıq" desələr də, gözlənilən zəng gəlmir. Analoji hadisə Lənkəranda baş verib. Dələduzluq edən qadın saxlanılıb. O, eyni əməllərə görə, Bakıda axtarışda imiş. Dələduzluğa əl atan qadın zərərçəkənlərin xeyli miqdarda pulunu mənimsəyib. İlin-günün bu vaxtında gözümüzü kəlləmizə çıxaran yüksək maaşlı iş elanlarını kim əldən vermək istəyər ki?! Təəssüf, işə düzəltmə şirkətləri və yaxud müəyyən şəxslər işsizlərin qəniminə çevrilib.



Belə yerdə deyirlər: əcəb işə düşmüşük...

**Mövzu ilə bağlı "Şərq"ə danışan sosioloq Əhməd Qəşəmoğlu bildirib ki, əsas səbəb mənəvi dəyərlərin arxa planda qalmasıdır:** "Hindistan kimi ölkələrdə belə hallar çox yaşanır. Mənəvi dəyərlər sıxışdırılanda kriminal hallar, dələduzluq, fırıldaqçılıq çoxalır. Nizami, Firdovsi, dini kitablar, peyğəmbərlər, müdrik insanlar mənəvi dəyərlərə üstünlük verib. Sovet vaxtında belə şeylər eşitmirdik. İndi hər kəs bir-birini aldatmaqda, kələk gəlməkdə məharətlidir.

İnsanlar dəbdəbə, "zerkalnı" maşın nömrəsinə, qır-qızılla bəhsə girməsinlər. Ağılları, bacarıqları ilə yarışsınlar".

**Aygün Tahir**

# 5 yaşdan yuxarı uşaqlardan gediş haqqı tələb olunur!

## Dövlətin bu işə müdaxiləsi daha doğru olar

**"Uşaqların gediş haqqından azad olunması ilə bağlı Nazirlər Kabinetinin xüsusi qərarı var. O qərarda 6 yaşına qədər vətəndaşların uşaq hesab edildiyi qeyd olunur. Görünür, daşıyıcı şirkətlər də bundan həvəslənib belə qərar veriblər".**

Bu barədə nəqliyyat üzrə ekspert Elməddin Muradlı "Şərq"ə bildirib. O, nəqliyyat vasitələrində azyaşlılar üçün təyin olunan qiymətlərdən danışarkən qeyd edib ki, bunu təkcə daşıyıcı şirkətlərin üzərinə atmaq düzgün deyil: "Dövlətin bu işə müdaxiləsi daha doğru olar. Dövlət daşıyıcı şirkətlərin qarşısında şərt qoyub, pulu özü ödəməlidir. Çünki bu şirkətlər də özəl şirkətlərdir, sahibkarlıqla məşğul olurlar. Hər bir halda onlara da diqqət göstərmək lazımdır. Əgər bu şirkət müəllimdən, təqaüdçüdən, polisdən, hərbçidən, azyaşlıdan ödəniş almırsa, bunun qarşılığında dövlət şirkətə nəsə etməlidir. Bu, dünyada qəbul olunmuş təcrübə və qaydadır. Sözsüz ki, bu olmadıqdan sonra şirkətlər müxtəlif yollarla gediş haqqını tələb etməyə başlayacaqlar".



Aidiyyəti qurumların məsələyə qanunvericilik səviyyəsində baxmalı olduğunu bildirən ekspert onu da əlavə edib ki, dövlət daşıyıcı şirkətləri dinləməlidir: "Neqativ hallara rast gəlinirsə, aradan qaldırmaq lazımdır. Günümüzdə Bakı şəhərindəki daşıyıcı şirkətlər Bakı Nəqliyyat Agentliyinin əlində "əsir" olublar. Onların problemlərini dinləyib, həll etmək lazımdır".

Qeyd edək ki, Bakı şəhərində avtobusların birində çəkilmiş elanda 5 yaşdan yuxarı uşaqlardan gediş haqqı tələb olunduğu yazılıb. Lakin əvvəllər bu tələb 6 yaşdan yuxarı azyaşlılara aid edilirdi.

**Çimnaz Şahlar**

**Elan**

Xaçmaz rayon, Xudat şəhər sakini Alper Kutluca məxsus türk şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mansumova Susan Asif qızının adına Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti 2980, mənzil 67, Universal MTK-ya məxsus Müqavilə və Maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

"Lalə" Firması "Murad Camal" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilərək yenidən təşkil olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Əmircan qəsəbəsi, Səttar Bəhlulzadə küçəsi 10A ünvanına bildirə bilərlər.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1769**



## Siqaretə meyil azalacaq

### ABŞ hökuməti yeni strategiyasını açıqlayıb

**ABŞ-da Prezident Co Baydenin administrasiyası siqaret aludəçiliyi ilə bağlı yeni siyasətini açıqlayıb. Qərara əsasən, siqaret istehsalçıları nikotini asılılıq yaratmayan səviyyəyə endirməli olacaqlar.**

"Şərq" "NTV"yə istinadən xəbər veriri ki, ABŞ Qida və Dərman Administrasiyasının (FDA) komissarı Robert Califf verdiyi açıqlamada, nikotinin güclü asılılıq yaratdığını deyib.

Açıqlamada, FDA-nın 2023-cü ilin may ayına qədər tütün məmulatlarının tərkibində ola biləcək nikotinin miqdarı üçün yuxarı hədd təyin edəcəyi bildirilib.

Bayden administrasiyasının qəbul etdiyi qərar çərçivəsində siqaretin nikotin aludəçiləri üçün daha az cəlbedici edilməsinin hədəfləndiyi vurğulanıb.

ABŞ-da siqaret istifadəsi, xüsusən də koronavirus pandemiyası zamanı qapanmalarda artıb. Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) 2020-ci ildə ABŞ-da yetkin insanların təxminən 12,5 faizinin (30,8 milyon nəfər) siqaret çəkdiyini bildirib.

**Çimnaz Şahlar**

## Şahzadə uşaqlarına yoxsulluq dünyasını göstərmək istəyir



**Şahzadə Uilyam üç övladına yoxsulluq dünyasını göstərmək istəyir.**

Oxu.az xəbər verir ki, bu barədə o, "The Big Issue" üçün yazdığı məqalədə bildirib.

Onun sözlərinə görə, özü ilk dəfə 11 yaşında anası şahzadə Diana ilə evsizlər üçün sığınacaqda olub və həmin vaxt unudulmuş problemə işıq salmaq üçün anasının tam qətiyyətini görüb.

İndi isə şahzadə Uilyam səkkiz yaşlı Corc, yeddi yaşlı Şarlotta və dörd yaşlı Lui ilə küçələrdə yaşayanları ziyarət etmək niyyətindədir. "Evsizlik həlli olmayan məsələ deyil, çarəsi olan problemdir", - deyə o, əminliyini ifadə edib.



# 8 yaşlı uşağı zorla aldılar

### İndi ata övladının oyuncaqları ilə təsəlli tapır

**Türkiyənin Kocaeli bölgəsində ağlasığmaz olay yaşanıb. Kocaelidə yaşayan Türkan Dursunun 8 yaşlı qızı icra məmurları tərəfindən atasından zorla alınaraq anasına təslim edilib.**

"NTV.com.tr" xəbər verir ki, Kocaelinin Gebze bölgəsində yaşayan ata qızını görmək üçün 2018-ci ildən bu yana hüquq mücadiləsi aparır. T.Dursun həyat yoldaşından ayrıldıqdan sonra azyaşlı övladlarına anasının nəzarət etməməsi iddiasıyla məhkəməyə müraciət edib, məhkəmə uşağın atasıyla qalmasına qərar verib. Lakin qərar qəti deyil, müvəqqəti qəbul edilib. Bu müddətdə uşaq atasıyla birlikdə qalıb. T.Dursun bu günlərdə övladıyla birlikdə Zonquldağa - valideynlərini ziyarət etməyə gedib. Valideynlərinin evindəykən icra məmurları gəlib və uşağı anasına təslim etməli olduqlarını deyiblər. 8 yaşlı uşağı atasından zorla qoparan məmurların nəzakətsiz davranışı mobil telefonla qeydə alınıb. İndi ata övladının oyuncaqları ilə təsəlli tapır. T.Dursun əvvəllər övladını görməyə getdiyində uşağın bədəninin yara içində olduğunu görüb, ögey atanın qızcığaza işgəncə verdiyini təxmin edib. Bu səbəbdən də məhkəməyə müraciət edərək övladının vərəsəliyinin anadan alınaraq ataya verilməsini istəyib. Qızcığazın zorla anasına aparılmasından təsirlənən ata yenidən məhkəməyə müraciət edəcək.

**Məlahət**



## Atalar günündə özünə hədiyyə verib, iki milyon dollar udub




**Amerikanın Şimali Karolina ştatının Roli şəhərinin sakini Atalar Günündə özünə hədiyyə etmək qərarına gəlib, lotereya bileti alıb və cekpotu udaraq varlanıb.**

**Milli.Az bildirir ki, bu barədə UPI xəbər agentliyi məlumat yayıb. 64 yaşlı Con Rocers ərzaq mağazasına gedib və Atalar Gününü qeyd etmək qərarına gəlib. O, 20 dollara ani lotereya bileti alıb. "Biletləri alanda dedim ki, bu, mənim özümə Atalar Günü hədiyyəsidir. Bu, heç vaxt unuda bilməyəcəyim bir Atalar Günü olacaq".**

**Kişi biletin qoruyucu təbəqəsini silib və məlum olub ki, o, iki milyon dollarlıq birinci mükafatı qazanıb. O, etiraf edib ki, bəxtini hələ də dərk etməyib.**

**Amerikalı aldığı pulun bir hissəsini hesabları ödəmək, kilsəsinə ianə vermək və ailəsinə kömək etmək üçün istifadə etməyi planlaşdırır. Bundan əlavə, o, həyat yoldaşı ilə tətilə getməyə hazırlaşır. "Mən həmişə ona deyirdim ki, onu Havay adalarına aparacağam və indi belə fürsətim var", - o dedi.**

## Müğənnidən ayrılıb yazıçı ilə sevgili oldu



**Sərdar Ortaçın keçmiş müğənni sevgilisi Seçil Gür yeni eşqə yelkən açıb.**

**Axşam.az xəbər verir ki, müğənni yazıçı Orkun Ünlə münasibətə başlayıb.**

***Qeyd edək ki, S.Ortaç bir müddət əvvəl Seçildən ayrıldığı üçün peşman olduğunu söyləmişdi.***

## İt aktrisanın üzünü parçaladı, 37 tikiş atdılar

### "Amma son nəfəsimə qədər səssiz canları qoruyacağam"




**Türkiyəli müğənni-aktrisa Zeynep Doruk Bodrumda sahibsiz itin hücumuna məruz qalıb.**

**Axşam.az xəbər verir ki, bu barədə aktrisa instaqram hesabında paylaşım edib. Zeynep itin hücumuna otelin qarşısında məruz qaldığını açıqlayıb.**

**"Üzümün sağ tərəfi paramparça oldu və qaşımım üstündəki sümük üzə çıxmışdı. Üzümə 37 tikiş atdılar. Çox qorxdum, pis oldum. İşlərimi təxirə salmaq məcburiyyətində qaldım. Tikişlərdən sonra üzüm nəyə oxşayacaq bilmirəm. Amma son nəfəsimə qədər səssiz canları qoruyacağam. Heyvanları da insanlara dəyişən hala gəldim" - deyə, o, bildirib.**

**Qeyd edək ki, Zeynep sonuncu dəfə "Seksenler" serialında rol alıb.**



# İnsanı kor edir

### Baldırğan otundan uzaq durun!

**Yay fəslində təbiət qoynunda dincəlməyi sevənlər təbiəti tanımalıdır. "Bir qalanın sirri"ndəki Elşən kimi bütün otların, bitkiləri "tanımaq" mümkün deyil, amma hər ota, bitkiyə əl vurmamaq, ehtiyatlı davranmaq olar, hər halda.**

Təbiətdəki yabanı bitkilər bir çox xəstəliklərin dərmanı olmaqla yanaşı, bəziləri xəstəlik, hətta insan sağlamlığında ağır fəsadlar yaratmaq xüsusiyyətinə malikdir. Onlardan biri də baldırğan otudur. Baldırğan otu çətirkimilər fəsiləsinə aiddir, Avropada, Avrasiyanınsa Qərbi Qafqaz bölgəsində geniş yayılıb. Zərif, ağ çiçəkləri cəlbedici görünür. Lakin bu cazibənin arxasında qorxunc xəstəlik gizlənir. "Şərq" "Milliyet.com"a istnadən xəbər verir ki, bu günlərdə İngiltərədə 4 yaşlı qızcığaz parkda oynayarkən baldırğan bitkisinə toxunub, uşağın əllərində yanıq və suluqlar əmələ gəlib. Mütəxəssislər xəbərdarlıq edir ki, təbiətlə təmasda olarkən ətrafdakı ot və bitkilər barədə məlumatlı olmayanlar yaxşısı budur, onları toplamaqdan, onlara toxumaqdan ehtiyat etsinlər. Xüsusilə də baldırğan otuna toxunduqda və dəri günəş şüası ilə təmas etdikdə dəridə dərin yanıqlar, suluqlar əmələ gələ bilər. Ağrı isə 48 saata qədər davam edir. 4 yaşlı qızcığazın əllərində də ikinci dərəcəli yanıq əmələ gəlib. Bu hadisə valideynlərin narahatlığına səbəb olub. Yay fəslində övladlarını tez-tez təbiət qoynuna səfərlərə, yürüşlərə göndərir. Valideynlər məktəb, bağça rəhbərliklərini uşaqlara qarşı daha diqqətli olmağa, onları nəzarətsiz qoymamağa, tanımadıqları bitkilərə əllə toxunmağa icazə verməməyə çağırıb. Türkiyəli mütəxəssis, dermatoloq-həkim Nezih Karaca bildirib ki, baldırğan otuna dəymiş əl gözə sürtülərsə gözdə korluq yarana bilər. Bu bitkinin tərkibindəki furanokumarin maddəsi zəhərlidir, günəş şüaları ilə təmas etdikdə dəridə yanıqlar əmələ gətirir, gözlər acışır, nəticə isə hətta kor olmaya gətirib çıxara bilir. Dəridə yanıq və suluqlar əmələ gəldikdə dərhal həkimə müraciət etmək lazımdır. Bitki ilə təmas etmiş bölgə bol su ilə yuyulmalı, dəri təmizlənməlidir.

**Məlahət Rzayeva**

## Dünyada yeddinci kosmik dövlət peyda oldu

**Dünyanın yeddinci kosmik dövləti peyda olub. Belə ki, Cənubi Koreya ilk dəfə öz istehsalı olan raketlə kosmosa peyk buraxmağı bacarıb.**



Oxu.az xəbər verir ki, bununla da, ölkə ABŞ, Rusiya, Fransa, Çin, Yaponiya və Hindistanla birlikdə orbitə bir ton və ya daha çox çəkiyə malik peyk çıxara bilən dövlətlər sırasına daxil olub.

Qeyd edək ki, "Korea Space Launch Vehicle 2" (KSLV-2) daşıyıcısının buraxılışı Naro kosmodromundan baş tutub. Raket bir neçə peyki uğurla Yerin orbitinə çıxarıb.

## Kameralar işə düşdü

### Professor evinə gələn ayıları lentə alıb



**İstanbul Texniki Universitetinin (İTU) professoru. Dr. Mikdat Kadıoğlu, Trabzonda evinin bağçasına girərək məhsullarına ziyan vuran "Meteor"un fotosunu nəhayət ki, çəkə bilib. Qonur ayını görmək üçün böyük səy göstərən Kadıoğlu "Onunla çay içmək vaxtıdır" deyib.**

"Şərq" türk mediasına istinadən bildirir ki, Mikdat Kadıoğlu nəhayət ki, evini təqib edən ayıları ələ keçirib.

O, ötən il yay tətilini keçirmək üçün məmləkəti Trabzonun Maçka mahalına gəlmişdi.

Kadıoğlu kənddəki evinə ayının ardınca getdiyini anlayıb və təhlükəsizlik tədbirləri görüb. Pəncərələrə dırmaşaraq evə və kənd təsərrüfatı məhsullarına ziyan vuran ayıya "Meteor" adını verən Kadıoğlu qonur ayını görmək üçün evinin ətrafına kamera yerləşdirib.

Sosial şəbəkədə "Ayı ilə dərdləşirəm" paylaşan Kadıoğlu qış yuxusundan oyanan qonur ayını təhlükəsizlik kameraları ilə çəkməyi bacarıb.

Meşədə qidalanmaq üçün yem axtaran 2 fərqli qonur ayının görüntüləri təhlükəsizlik kamerasına əks olunub. Kadıoğlu qonur ayıların görüntülərini sosial şəbəkədə paylaşaraq, "Meteor"un ilk görüntüsü çəkildi. Keçən qışda bölgədəki dağlıq evləri dağıdan, lakin evimizə toxunmayan ayı ustasının təsviri belədir. Onunla çay içmək növbəsi idi, amma son gedişlərdə əsəbi görünür".

Təhlükəsizlik kamerasına düşən digər qonur ayı ilə bağlı isə Kadıoğlu "Meteor"dan fərqli olaraq bu daha çox usta ayıya bənzəyir" deyə bildiri.

**Turan**

## Buzlaqlar sürətlə əriyir

### Bu proses xüsusən də Arktik regionlarda daha tez gedir



**Qrenlandiyanın kiçik buzlaqları yüksək sürətlə əriyir və bu proses xüsusən də Arktik regionlarda daha tez gedir.**

Azərtac bildirir ki, yeni tədqiqatın müəllifləri buz sipərləri ilə əlaqəli olmayan bu buzlaqların son onilliklər ərzində nə qədər kütlə itirdiyini dəqiq öyrəniblər.

Arktikada hərarət digər yerlərlə müqayisədə sürətlə yüksəlir. Bu, Qrenlandiyanın ən şimal buzlaqlarının rekord sürətlə əriməsinə gətirib çıxarır.

Tədqiqatçılar komandası Qrenlandiya buz sipərinə aidiyyəti olmayan kiçik buzlaqlar üzərində fikrini cəmləşdirib. Bu ətraf buzlaqlar Qrenlandiyanın buzla örtülən bütün ərazisinin cəmi 4 faizini təşkil edir. Lakin onların payına ümumi buz itkisinin təqribən 11 faizi düşür. Bu isə o deməkdir ki, onlar dəniz səviyyəsinin qlobal yüksəlməsinə əsas töhfə verirlər.

Alimlər araşdırıblar ki, son 20 il ərzində ətraf buzlaqların əriməsi kəskin artıb. 2018-ci ilin oktyabrından 2021-ci ilin dekabrınadək orta hesabla ildə 42,3 giqaton buz əriyib. Müqayisə üçün qeyd edək ki, 2003-cü ilin fevralından 2009-cu ilin oktyabrınadək müvafiq göstərici hər il 27,2 giqatona bərabər olub.

Hazırda təcrid edilmiş buzlaqlar Qrenlandiya buz örtüyünün bir hissəsi deyil, lakin Arktikanın əriməsi prosesinin öyrənilməsində onları nəzərə almaq vacibdir.